# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 17 (3483) Cümə axşamı / 18-24 may 2023-cü il Qiyməti 40 qəpik


MÜSAHİB

## Türkiyədə müxalifət kənardan idarə olunur



**Elşad Mirbəşir**
Milli Məclisin deputatı

***Mayın 14-də Brüsseldə Avropa İttifaqının təşəbbüsü ilə Azərbaycan və Ermənistan liderləri arasında növbəti görüş baş tutdu. Eyni gündə qardaş Türkiyədə dünyanın diqqətlə izlədiyi parlament və prezident seçkiləri keçirildi. Dünən isə Rusiya ilə İran arasında Azərbaycandan keçməsi nəzərdə tutulan Şimal-Cənub nəqliyyat dəhlizinin əsasını təşkil edən Rəşt-Astara dəmiryolu layihəsi ilə bağlı müqavilə imzalandı. Bu istiqamətdə "Həftə içi"nə müsahibə verən Milli Məclisin deputatı Elşad Mirbəşir regionu əhatə edən mühüm məqamlara diqqət çəkib.***

*İstər Fransa parlamentində, istər Avropa İttifaqı Parlamentində Azərbaycana qarşı qərəzli müzakirələrin keçirilməsinə səbəb olan amillərdən biri də məhz Ermənistanın davamlı təxribatlarıdır*

Səh. 3

# Azərbaycana tuşlanan fransız silahı

***Sərhəddə baş verən növbəti erməni təxribatından sonra Brüsseldə Azərbaycan və Ermənistan arasında yüksək səviyyədə növbəti danışıqlar raundu baş tutdu. Görüşün nəticələrinə əsasən Ermənistan Azərbaycanın 86,6 min kvabratkilometrlik ərazi bütövlüyünü rəsmən tanıdığını bir daha bəyan etmək məcburiyyətində qaldı.***

***Brüssel görüşündə Azərbaycanın növbəti diplomatik zəfərini şərtləndirən ən başlıca amillərdən biri isə ermənipərəst Fransanın, Makron hökumətinin baş verənləri sadəcə kənardan izləməklə qalması idi. Lakin Paris Cənubi Qafqazda ermənilərin əli ilə hər vəchlə özünə yer etməyə çalışır. Özü də bunu Qarabağ bölgəsini "anklav" adlandıraraq siyasi bəyanatlar verməklə yox, Ermənistanı yeni müharibəyə şirnikləndirməklə edir. Necə? İrəvanı yeni müasir silahlarla təchiz etməklə.***

***Fransa Ermənistandakı səfirliyinin yanında yeni hərbi attaşenin təyin olunması barədə qərar qəbul edib. Beləliklə, bir neçə müddət bundan əvvəl Fransanın "Intelligence Online" nəşri tərəfindən yayılan məlumat öz təsdiqini tapıb. Bu addım ilk dəfə yüksək səviyyədə 2022-ci ilin sentyabrında, Ermənistanın müdafiə naziri Suren Papikyanın Fransaya səfəri zamanı müzakirə olunub və indi faktiki olaraq rəsmiləşir. Bildirilir ki, fransalı hərbi attaşe Fransa ölümcül silahların Ermənistana tədarükünə nəzarət edəcək.***

***Parisin Ermənistana ölümcül silahların tədarükü barədə hərbi-siyasi qərarına əsas dəstəyi şəxsən Fransa Prezidenti Emmanuel Makron göstərib. Beləliklə, Avropa İttifaqının aparıcı ölkələrindən biri regiona ölümcül silahların tədarükündən imtina üzrə ənənəvi ümumavropa siyasətini kobud şəkildə pozub. Materialda deyilir ki, bununla da Fransa regionda hərbi tarazlığa Ermənistanın xeyrinə təsir göstərməyə səy göstərib. Bu addımın heç bir nəticə ıverməyəcəyi, sonluğun dəyişməz olaraq qalacağı isə heç kimdə şübhə doğurmur.***



**Azər Badamov, millət vəkili:**

- Ermənistan vaxtında nəticə çıxarmasa, ona nə Fransa, nə də digərləri kömək edə biləcək. "Makron hakimiyyəti gizli yollarla Ermənistanı silahlandırmaqda və ona "bacılıq" etməkdə davam edir. Fransanı narahat edən Azərbaycanın qalib gəlməsi və müstəqil siyasət yürütməsidir.

Fransanın özünün tarixinə baxsaq görərik ki, bu dövlət həmişə müstəmləkəçilik siyasəti yürütmüş, müsəlmanlara qarşı soyqırımlar törətmişdir. Makron həm də çalışır ki, Rusiyanı regiondan sıxışdırıb çıxartsın. Onun hərəkətləri dövlət başçısının hərəkətlərinə oxşamır.

Bu səbəbdən Fransa beynəlxalq siyasətdə hörmətdən düşür. O cümlədən Fransanın daxili siyasətində də Makronun hakimiyyətinə qarşı narazılıqlar artır. Sadə fransızlar Makronun istefasına çağırırlar. Bütün bunlar onu deməyə imkan verir ki, Fransanın özü böyük böhran yaşayır.







**Elxan Şıxəliyev, hərbi ekspert:**

- Fransa rəhbərliyinin qərarları bir daha təsdiqləyir ki, səslənən iddiaların əksinə olaraq, Fransa Cənubi Qafqazda sülhün bərqərar olmasına deyil, əksinə, gərginliyin artmasına və yeni münaqişənin alovlanmasına çalışır. Bir tərəfdən Fransa, digər tərəfdən İran, Rusiya, Hindistan silah bazarında karlı çıxmaq istəyirlər. Ermənistan bu boşluğu doldurmaq üçün Fransa ilə əməkdaşlıq etməyə meyillik göstərir.

Ermənistan Müdafiə Nazirliyi Fransa istehsalçılarından silah alınması məsələlərini müzakirə edir. Fransa da gələcəkdə Ermənistanı silahlandırmaq üçün təcavüzkar ölkəyə mesaj verməklə onları cəsarətləndirir. Ermənistan da bu addımları ilə şərti sərhəddə atəşkəsin pozulmasını həyata keçirir. Gələcəkdə Ermənistanın ehtiyaclarını ödəmək üçün Fransanın hansı silahları verəcəyi məlum olacaq. İndiki halda Ermənistanın əsas istəkləri hava hücumundan müdafiə və tank əleyhinə raket sistemləridir. Düşmən ölkə əsasən özünün təhlükəsizliyini təmin etmək üçün sıradan çıxarılmış zirehli texnikaların yerini doldurmaq məqsədilə axtarışdadır. Artilleriya vasitələri, hava hücumundan müdafiə vasitələrinə ehtiyacı var. Bu ehtiyacları tez zamanda Fransanın qarşılayacağını düşünmək olar. Çünki silahlar və hərbi-texniki avadanlıq bir dövlətdən digərinə ötürüləndə onun heyətləri də hazırlanmalıdır. Ermənistan silahlanmanı həyata keçirdikcə və atəşkəsi pozduqca əldə edəcəyi yalnız bir nəticə olacaq, o da qarşı tərəfdə qazılan məzarların sayının çoxalması olacaq. Ona görə də Ermənistanın hərbi-siyasi rəhbərliyi və cəmiyyəti yaxşı bilməlidir ki, Azərbaycan Silahlı Qüvvələri indiyədək təxribatlara layiqli cavab verdiyi kimi, bundan sonra da artıqlaması ilə bu ölkənin silahlı dəstələrini adekvat cavab verəcək.

*Tahirə*

MÜSAHİB



**Əlisaab Orucov,**
Müstəqil Azərbaycan Respublikasının ilk ədliyyə naziri

■ Onlar heç bir əsas olmadan bizi tərksilah edərək dedilər ki, aprelin 27-də özbaşına Qafan istiqamətində etdiyiniz hücuma görə hamınızı aparıb Ermənistana təhvil verəcəyik

■ İcra başçısıyla həmin adamı başqa otağa keçirib onunla söhbət etdikdə müəyyən etdik ki, o, təxribatçıdır

■ AXC rəhbərlərindən heç kəs mənə zəng vurmadı. Belə anlayırdım ki, onları Laçının taleyi maraqlandırmır

Səh. 3

GÜNÜN FOTOSU...



**Azərbaycanda hasarlandığı deyilən dəmiryolu**

GÜNÜN SİTATI

*"Rusiya tez bir zamanda Rusiya, İran və Azərbaycan arasında dəmir yolu infrastrukturunun inkişafı və "Şimal-Cənub" marşrutunda yükdaşımaları üzrə əməkdaşlığa dair sazişin hazırlanmasının başa çatacağına ümid edir"*



**Vladimir Putin,**
Rusiya Prezidenti

KARİKATURA




**Pasinyanın sahib olduğu ordu**

## İnsan alveri transmilli bəladır

**Zahid Oruc,**
Milli Məclisin deputatı

Azərbaycan güc strukturları insan alveri sahəsində də öz işini ildən ilə təkmilləşdirməkdədir.

Səh. 6

STATİSTİKA



■ **Bakıda çalışan əhalinin orta aylıq maaşı açıqlanıb.**

Bakı Şəhər Statistika İdarəsindən (BŞSİ) verilən məlumata görə, 2023-cü ilin yanvar-fevral aylarında muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2022-ci ilin müvafiq dövrünə nisbətən 10,6 faiz artıb. Rəsmi məlumata görə, hesabat dövründə orta aylıq əməkhaqqı 1083,0 manat təşkil edib.




Səh. 4

## Ölkədə daha bir neçə bank bağlana bilər

PREZİDENTİN İŞ GÜNÜ

# İlham Əliyev Tokayevə zəng etdi



**Mayın 17-də Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə zəng edib. İlham Əliyev Kasım-Jomart Tokayevi yubileyi münasibətilə təbrik edib, ona möhkəm cansağlığı, Qazaxıstanın inkişafı və firavanlığı naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.**

Qazaxıstan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib. Azərbaycan Prezidenti bu ilin aprelində Qazaxıstana səfərini məmnunluqla xatırlayaraq, göstərilən qonaqpərvərliyə görə bir daha minnətdarlığını bildirib, səfərin uğurla nəticələndiyini və ikitərəfli münasibətlərin inkişafına güclü təkan verdiyini vurğulayıb. Telefon söhbəti zamanı dövlət başçıları Azərbaycanla Qazaxıstan arasında dostluq və qardaşlıq münasibətlərinin gələcək inkişafı ilə bağlı məsələləri müzakirə ediblər.

***



**Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında fəal dialoqun həyata keçirilməsindən məmnunluğunu bildirərək Boris Kolların səfərinin əməkdaşlığın perspektivləri ilə bağlı müxtəlif sahələrdə, o cümlədən parlamentlərarası əlaqələrin inkişafı üzrə müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını dedi.**

Enerji sahəsində əlaqələrə toxunan dövlətimizin başçısı bu ilin aprelində Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanmasının önəmini qeyd etdi, "Həmrəylik Halqası" STRİNG layihəsi çərçivəsində ölkələrimiz arasında əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu bildirdi. Prezident İlham Əliyev ticarət, qarşılıqlı investisiya qoyuluşu, nəqliyyat sahələrində də əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğuladı.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edə qonaq Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə keçirilən tədbirdə iştirak etməkdən şərəf duyduqlarını vurğuladı. Ulu Öndərin böyük müdrikliyə və güclü iradəyə malik, xarizmatik şəxsiyyət olduğunu, Azərbaycan dövlətçiliyinin əsasını qoyduğunu deyən Slovakiya parlamentinin sədri məhz onun uzaqgörənliyi nəticəsində ölkəmizin davamlı surətdə inkişaf etdiyini diqqətə çatdırdı.

Azərbaycanın çox müasir və gözəl olduğunu vurğulayan Boris Kollar ölkəmizə ikinci dəfə gəldiyini dedi, ötən il Şuşaya səfərini məmnunluqla xatırladı.

Slovakiyanın Azərbaycanın ərazi bütövlüyünü tam və qəti şəkildə dəstəklədiyini deyən Boris Kollar işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərini qeyd etdi, orada Slovakiya şirkətlərinin də fəaliyyət göstərməkdə və müxtəlif layihələrdə iştirak etməkdə maraqlı olduğunu diqqətə çatdırdı.

Minatəmizləmə sahəsində Azərbaycanın Slovakiya şirkətləri ilə səmərəli əməkdaşlığına toxunan qonaq ölkəsində istehsal olunan minatəmizləmə maşınlarının humanitar minatəmizləmə fəaliyyəti üçün ərazidə səmərəli şəkildə tətbiq olunmasını xüsusi vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında enerji sahəsində gələcək əməkdaşlıq məsələləri müzakirə olundu, bu yaxınlarda Bolqarıstanda əsası qoyulmuş "Həmrəylik Həlqəsi" təşəbbüsü çərçivəsində Azərbaycan qazının Slovakiyaya çatdırılması istiqamətində böyük perspektivlərin olduğu bildirildi.

Görüşdə Slovakiyanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığına verdiyi dəstək yüksək qiymətləndirildi.

# Prezident və birinci xanım sərgilərlə tanış olublar

Gündəm

***Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlətimizin başçısına və birinci xanıma sərgilərlə bağlı məlumat verdi.***



Bildirildi ki, hər il olduğu kimi bu il də sərgilərə iştirakçılar və ziyarətçilər tərəfindən böyük maraq göstərilir. Bakı Ekspo Mərkəzinin bütün mümkün pavilyonlarını və açıq sahəsini əhatə edən sərgilərdə rekord sayda milli və regional stendlər nümayiş olunur. Ümumilikdə sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edir, 9 ölkə isə milli stendlərlə təmsil olunur. "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində ABŞ, Almaniya, Belarus, Gürcüstan, İtaliya, Niderland, Şri Lanka, Rusiyanın regional qrupları, eləcə də builki debütant ölkə Tunis və Çexiyadan olan milli qruplar iştirak edirlər.

Dövlətimizin başçısı və birinci xanım sərgidə "Grow Group Azərbaycan", "Maschio Gaspardo", "New Holland", "Rostselmaş", "MySilo", "Rauch Landmashchinen", "SwissGrow", "AfiMilk", "Gowan", "Can-Pa" şirkətlərinin, Çexiyanın, İtaliyanın, Belarusun, Gürcüstanın, ABŞ-ın və Niderlandın stendləri ilə tanış oldular. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikaları, əkin-biçin aqreqatları və kənd təsərrüfatı məhsulları təqdim olunur.

Naxçıvan Muxtar Respublikasının stendi ilə tanışlıq zamanı bildirildi ki, kənd təsərrüfatı məhsullarının istehsalında ərzaq və qida təhlükəsizliyi başlıca şərtlərdən biridir və Naxçıvan fermerləri daha çox orqanik məhsulları yetişdirməyə üstünlük verirlər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin pavilyonu ilə tanış oldular. Burada Ümummilli Lider Heydər Əliyevə həsr olunan xüsusi təqdimat hazırlanıb. Bildirildi ki, bu il xalqımız müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Buna görə də sərgilər də məhz Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.

Azərbaycanda aqrar sahənin inkişafı Ulu Öndərin fəaliyyəti ilə sıx bağlıdır. Ümummilli Lider Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının qəbul etdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar ölkə iqtisadiyyatının, o cümlədən aqrar sektorun davamlı inkişafına real zəmin yaradır.

Pavilyonda, həmçinin Elmi-Tədqiqat İnstitutlarının ən son nailiyyətləri, yaşıl enerji mənbələrinə dair qurğu və məhsullar nümayiş olunur.

Burada müxtəlif yarış və müsabiqələrinin qalib aqrar startapçıları tərəfindən arıçılıqda "varatoz" gənəsinə qarşı mübarizə, ənənəvi balıq yetişdirmə üsullarının hidroponik əkinçiliklə birləşdirən sistem, bioqaz, alternativ enerji mənbələrindən əldə edilmiş hidrogen qazı, ağıllı istixana idarəetmə sistemi, alaq otlarını lazer sistemi ilə təmizləyən aqro-robot, avtomobillər üçün portativ qida bloku, külək və günəş izləmə qurğuları, idarəolunan günəş panelləri, uzaqdan idarəolunan sayğaclar, külək turbinləri, iqlim stansiyası, dəqiq suvarma idarəçiliyi üçün sensor, suvarmada istifadə olunan günəş enerjisi ilə işləyən inventorlar sərgilənir.

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların və müasir texnologiyaların tətbiqi dövlət tərəfindən dəstəklənir. Kənd təsərrüfatının intensiv inkişafı həm də aqrar sektorda innovasiyaların tətbiqindən birbaşa asılıdır. Aqrar sahələrdə innovasiyalardan istifadə günümüzün çağırışı olduğundan sərgilər kənd təsərrüfatı məhsullarının istehsalçılarına bu innovativ yeniliklərlə əyani tanış olmağa imkan verir.

Bildirildi ki, "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində KOBİA-nın dəstəyi ilə qida sənayesi və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərən mikro və kiçik sahibkarlıq subyektləri də öz məhsul və xidmətlərini təqdim edirlər. Sərgi çərçivəsində açıq sahədə kənd təsərrüfatında istifadə olunan texnikalar nümayiş olunur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Azərtexnika" MMC, "Agritex" MMC, "Agromotors" şirkətlərinin və Gəncə avtomobil zavodunun texnikaları ilə tanış oldular. Qeyd edək ki, üç gün davam edəcək sərgilər çərçivəsində Aqrar İnnovasiyalar Forumu təşkil olunacaq. Forumda "Kənd təsərrüfatının inkişafında Heydər Əliyevin uğurlu aqrar siyasəti", "Kənd təsərrüfatında innovativ həllərə əsaslanan texnologiyalar", "Orqanik kənd təsərrüfatı", "Rəqəmsal kənd təsərrüfatı", "Yaşıl kənd təsərrüfatı" və digər mövzular müzakirə ediləcək.

"InterFood Azerbaijan" sərgisi çərçivəsində dekorativ yeməklərin kompozisiyasından ibarət "Qida - sənət əsəri" sərgisi, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Qızıl Şah - Qızıl Yüzlük" III Milli Kulinariya Çempionatı da təşkil ediləcək.



# Qarabağda torpaq ala bilərikmi?

***Bu gün Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə köç davam edir. Hazırda həmin ərazilərdə əsas baza infrastrukturu ilə bağlı layihələr yekunlaşmaqdadır. Rəsmilər növbəti ildə işlərin əksəriyyətinin yekunlaşdırılacağını bəyan edirlər. Bu isə o deməkdir ki, artıq Qarabağın yol, kommunikasiya, digər infrastruktur xətləri tam olacaq, həyatın qayıtması üçün bütün zəruri şərait yaradılacaq.***



Xatırladaq ki, həmin ərazilərə Böyük Qayıdış artıq ötən ildən başlayıb. İlk olaraq Şərqi Zəngəzurda yerləşən Zəngilanın Ağalı kəndinə məcburi köçkünlər köçürülüb. Rəsmi şəxslər köçün bundan sonra davamlı prosesə çevriləcəyini bildirirlər. Qeyd edək ki, bu ərazilərdə həyat tədricən bərpa olunduğundan orada yaşamaq istəyən Azərbaycan vətəndaşlarının sayı da artır. Elə bu səbəbdən hazırda vətəndaşları maraqlandıran məsələlərdən biri də həmin ərazilərdə digər Azərbaycan vətəndaşlarının torpaq sahəsi ala bilib-bilməməsi ilə bağlıdır.

Maraqlıdır, görəsən, Azərbaycanın digər bölgələrində qeydiyyatda olan vətəndaşlar işğaldan azad edilmiş ərazilərdə evlər, bağ sahələri ala bilərlərmi? Bu huquq nə zamandan tanınacaq və necə tənzimlənəcək? Həmin ərazilərə köçürülən vətəndaşların evlərini satmaq hüququ varmı?

■ **Məsələni qəzetimizə şərh edən əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı deyib ki, bu gün işğaldan azad olunmuş ərazilərdə dövlət tərəfindən müvafiq layihələr icra edilir:** "Amma hələlik ərazi üzrə torpaq islahatı həyata keçirilmir və yaxın aylarda da bu planlaşdırılmır. Bu o deməkdir ki, həmin ərazilərdə hələ ki, torpaq sahələrinin mülkiyyətə verilmə mexanizmi məlum deyil. Yəni, dövlətin inşa edəcəyi hansı ərazilərdə vətəndaşlara nə qədər torpaq sahələri ayrılacaq, ayrılan torpaq sahələrinin mülkiyyətə verilmə formaları hansı qaydalara uyğun həyata keçiriləcək məlum deyil. Tutaq ki, bu proses 90-cı illərin əvvəllərində aparılan torpaq islahatlarına uyğun həyata keçiriləcəkmi, insanlara pay torpaqları veriləcəkmi və s. bunlar hamısı qeyri-müəyyəndir. Bu məsələlər məlum olmadığına görə indiki halda bununla bağlı konkret fikir bildirmək hələlik tezdir.

> *İndiki halda həmin ərazilərdə mülkiyyət münasibətlərinə aydınlıq gətirilmədiyindən yeni salınmış qəsəbələrə köçürülən vətəndaşlar onlara verilən evləri sata bilməzlər*

Bu təbii ki, vətəndaşların həmin ərazilərə tam köçürülməsindən sonra mümkün olacaq. Belə ki, köçürülmə prosesi tam başa çatdıqdan sonra artıq mülkiyyət münasibətləri aydınlaşacaq. Yəni, dövlət mülkiyyəti haradır, özəl mülkiyyət haradır və s. həmin ərazilərin konturları müəyyən olunandan sonra vətəndaşlar onların mülkiyyətinə verilmiş torpaq və ya daşınmaz əmlak subyektlərinin alqı-satqısını mövcud qanunvericiliyə uyğun olaraq həyata keçirə biləcəklər. Bu da o deməkdir ki, indiki halda həmin ərazilərdə mülkiyyət münasibətlərinə aydınlıq gətirilmədiyindən yeni salınmış qəsəbələrə köçürülən vətəndaşlar onlara verilən evləri sata bilməzlər. Məsələn, mövcud qanunvericiliyə görə bu gün bələdiyyə mülkiyyətindən vətəndaşa ayrılan torpaq sahəsi 5 il müddətinə alqı-satqı subyekti ola bilməz. Düşünürəm ki, təxminən işğaldan azad olunmuş həmin ərazilərlə bağlı da buna oxşar qərar qəbul olunacaq. Bu ən azından həmin ərazilərdə mülkiyyətə veriləcək daşınmaz əmlak subyektlərinin qısa müddətdə alqı-satqı predmetinə çevrilməməsi üçün hesab edirəm ki, vacibdir".

■ **Məsələ ilə bağlı millət vəkili Tahir Rzayev isə qəzetimizə açıqlamasında deyib ki, bu məsələlər qanunvericiliyə uyğun həyata keçiriləcək:** "Qeyd edim ki, ilk növbədə həmin torpaqlar minalardan təmizlənməlidir. Sonradan sözsüz ki, həmin ərazilərdə də vətəndaşların təşəbbüsü ilə bələdiyyələr yaradılmalıdır, sonra torpaqların formatı müəyyən edilməli, istər xüsusi mülkiyyətdə olan torpaqlar,istər dövlət torpaqları, istərsə də bələdiyyə torpaqları ayrılmalıdır. Və bu proses aydınlaşandan sonra qanunvericiliyə uyğun olaraq əlbəttə ki, ölkənin digər vətəndaşları da həmin ərazilərdən torpaq ala bilərlər. Çünki bizim mövcud qanunlarımız buna əsas verir. Məsələn, hər bir Azərbaycan vətəndaşı yaşadığı ərazidən asılı olmayaraq digər ərazilərdə də bələdiyyə torpaqlarını almaq hüququna malikdir. Təbii ki, bununla bağlı müəyyən çərçivələr də müəyyən olunub. Belə ki, bələdiyyə torpaqlarının satışı hərrac və müsabiqə yolu ilə aparılır. Və sözsüz ki, belə olan halda həmin ərazilərdən ev də, bağ salmaq üçün sahə də almaq mümkün olacaq.

Həm də ki, əgər vətəndaş öz mülkünü özəlləşdirirsə, onun əlində mülkiyyət hüququna dair əsaslı sənəd varsa, sözsüz ki, gələcəkdə o, özünə məxsus evi sata biləcəkdir. Təbii ki, bu zaman tələb edən məsələdir. Ancaq Azərbaycanın mövcud qanunları hər bir vətəndaşa alqı-satqı hüququ verir və bu hüquqlardan işğaldan azad olunmuş ərazilərdə məskunlaşmış insanlar da istifadə edə biləcəklər. Digər tərəfdən, gələcəkdə həmin ərazilərdə yaşamaq istəyən, həmin ərazilərə köçmək istəyən Azərbaycan vətəndaşları da müəyyən qanunvericilik çərçivəsində öz hüquqlarından istifadə edəcəklər".

> *Gələcəkdə həmin ərazilərdə yaşamaq istəyən, həmin ərazilərə köçmək istəyən Azərbaycan vətəndaşları da müəyyən qanunvericilik çərçivəsində öz hüquqlarından istifadə edəcəklər*

✍ Sevinc

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303). "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC 1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AIIBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Müsahib



**Elşad Mirbəşir**
Milli Məclisin deputatı

# Türkiyədə müxalifət kənardan idarə olunur

***Mayın 14-də Brüsseldə Avropa İttifaqının təşəbbüsü ilə Azərbaycan və Ermənistan liderləri arasında növbəti görüş baş tutdu. Eyni gündə qardaş Türkiyədə dünyanın diqqətlə izlədiyi parlament və prezident seçkiləri keçirildi. Dünən isə Rusiya ilə İran arasında Azərbaycandan keçməsi nəzərdə tutulan Şimal-Cənub nəqliyyat dəhlizinin əsasını təşkil edən Rəşt-Astara dəmiryolu layihəsi ilə bağlı müqavilə imzalandı. Bu istiqamətdə "Həftə içi"nə müsahibə verən Milli Məclisin deputatı Elşad Mirbəşir regionu əhatə edən mühüm məqamlara diqqət çəkib.***

***- Mayın 14-də Brüsseldə keçirilən Azərbaycan-Ermənistan danışıqlarını necə dəyərləndirirsiniz?***

- Əvvəla qeyd etməliyəm ki, may ayının 10-11-də Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi təxribatlar 2020-ci ildən bu yana həyata keçirdikləri hərbi-siyasi prosesin davamıdır. Biz hər zaman Ermənistanın yekun sülh sazişini imzalamaqdan yayındığını görmüşük və bu baxımdan bu cür erməni təxribatları bizdə təəccüb doğurmur. Otuz il müddətində Azərbaycan torpaqlarını işğal altında saxlayan, heç bir halda məsələni dinc vasitələrlə həll etməyə hazır olmayan Ermənistan, təbii ki, öz mövqeyində israrlıdır, Azərbaycana qarşı əsassız ərazi iddialarından geri çəkilmək fikrində deyil. Yenə də kənardan hansısa dəstəklər sayəsində Azərbaycanın iradəsi, gücü ilə formalaşmış reallıqları dəyişdirməyə çalışırlar.

Azərbaycan Prezidenti cənab İlham Əliyev hər zaman vurğulayıb ki, biz regionda yeni reallıq yaratmışıq, torpaqlarımızı işğaldan azad etmişik və bu reallıq həm Ermənistan, həm də dünya dövlətləri tərəfindən qəbul edilməlidir. Mahiyyət etibarilə dünyanın əksər ölkələri regiondakı yeni konfiqurasiyanı qəbul edir, amma Ermənistan və onun havadarları bu reallıqla heç cür barışmaq istəmirlər. Bu baxımdan Ermənistanın təxribatları əsasən iki məqsədə xidmət edir: birinci məqsədi Azərbaycanın "aqressor obrazını" yaradıb dünyaya təqdim etməklə bəlli dairələr tərəfindən ölkəmizə qarşı qərəzli siyasi mövqenin formalaşmasına nail olmaqdır. Biz həmişə görmüşük ki, Ermənistan bu təxribatları törədən zaman Azərbaycan tərəfindən qarşısı qətiyyətlə alınıb. Bundan sonra isə Avropanın bəzi dairələri Azərbaycanı əsassız olaraq aqressiyada günahlandırıblar. İstər Fransa parlamentində, istər Avropa İttifaqı Parlamentində Azərbaycana qarşı qərəzli müzakirələrin keçirilməsinə səbəb olan amillərdən biri də məhz Ermənistanın davamlı təxribatlarıdır. Təbii ki, belə bir gərginliyin yaradılması Ermənistan üçün ona görə vacibdir ki, qərəzli mövqe yekun sülh sazişinin imzalanmasının müddətini qeyri-müəyyən zamana uzadır. Bildiyimiz kimi Avropa İttifaqının mülki missiyası Ermənistana göndərildi və ikinci uzunmüddətli missiyanın müddəti 2 il olacaq. Ermənistan ümid edir ki, bu iki il müddətində Azərbaycanla sülh müqaviləsi imzalanmayacaq.

Paşinyan və onun komandası Ermənistanın hazırkı məğlub vəziyyətində Azərbaycanla sülh müqaviləsini imzalamaqdan həm də ona görə yayınır ki, bu, Paşinyan hökumətinin sonu olacaqdır. Ermənistanda mövcud qüvvələr fürsət gözləyirlər ki, elə bir məğlub durumda sülh müqaviləsi imzalansın ki, Paşinyana qarşı əks-çıxışlar başladılsın. İkinci məqsəd ondan ibarətdir ki, Ermənistan bu cür davranışları ilə münaqişənin "hələ də davam edir" təəssüratını yaratmağa çalışır və havadarlarının da istəklərinə uyğun olaraq məsələlərin müzakirəsini yenə də ATƏT-in Minsk qrupu formatına keçirmək istəyir. Məsələ ATƏT-in Minsk Qrupu platformasına keçəcəksə danışıqlar dalana dirənəcək. Otuz ilə yaxın müddətdə ATƏT-in Minsk qrupunun fəaliyyəti əsasən ona istiqamətlənmişdi ki, münaqişə həll olunmasın, tənzimlənməsin, idarə olunsun. Bu da zaman keçdikcə işğalın nəticələrini leqallaşdırmaq imkanı qazanması üçün Ermənistanın xeyrinə idi.

Azərbaycanın bu istiqamətdə qətiyyətli mövqeyi var və bu, daha sonraya planlaşdırılan üçtərəfli görüşlərdə də əsas hədəfə çatmağa hesablanıb.

***- Mayın 14-də Azərbaycan Prezidenti Brüsseldə Ermənistanın baş naziri ilə danışıqlar masasında oturan zaman, Türkiyə xalqı da yenidən prezident və parlament üzvlərini seçdi. Necə hesab edirsiniz, Qərbin, Avropanın Türkiyə seçkiləri ilə bağlı maraqları özünü nədə ifadə etdi? Məlumdur ki, seçkinin nəticələri ikinci turda bəlli olacaq. Bununla belə Türkiyə seçkiləri regiona nələri vəd edir?***

- Qardaş Türkiyədə keçirilən seçkilər hazırki dünyanın geosiyasi mənzərəsi fonunda tək Türkiyənin daxili işi deyil, artıq geosiyasi mahiyyət kəsb edən seçkidir. Seçkilərin nəticələri bu və ya digər formada dünyanın siyasi gündəminə təsir göstərəcək.

Türkiyə müxalifətinin seçki prosesində ziddiyyətli çıxışları isə bir çox məqamları ortaya çıxartdı. Heç bir şübhə yoxdur ki, bu müxalifət kənardan idarə olunan müxalifətdir. Elə Kılıçdaroğlunun səsləndirdiyi fikirlər aydın göstərir ki, Qərb onu Ərdoğana qarşı hər bir vasitələrlə dəstəkləməkdədir. Baxın, Kılıçdaroğlu deyir ki, Prezident seçiləcəyi təqdirdə Rusiyaya Türkiyənin NATO dövləti olduğunu xatırladacaq. Və yaxud Yeni Orta Dəhliz layihəsini nümayiş etdirir və orada Azərbaycanın adını çəkmir, Azərbaycana qarşı bir çox hallarda ziddiyyətli mövqelər sərgiləyir. Bütün bunlar onu göstərir ki, müxalifət Ərdoğanın kursuna zidd olan mövqe sərgiləyir. Bu da Qərbin diqtəsi ilə baş verməkdədir. Məqsəd ondan ibarətdir ki, Türkiyə əvvəlki illərdə olduğu kimi idarə olunan, sözə baxan, üzüyola bir dövlət olsun. Ərdoğan hakimiyyətinə qədər həqiqətən də Türkiyə öz maraqları üçün deyil, Qərbin maraqlarına uyğun siyasət yeridirdi. Baxın, 2017-ci ildə referendum yolu ilə qardaş ölkə parlamentli respublikadan, Prezidentli respublikaya keçid etdi. Ondan sonra Qərb başqa şəkildə Türkiyəyə qarşı çıxışlar etdi və hətta Türkiyəyə qarşı bir sıra sanksiyalar tətbiq olundu. Sual oluna bilər: əgər xalqın iradəsi ilə ölkə prezidentli respublikaya keçid edirsə, Qərbi narahat edən nədir? Deməli, Qərb parlamentli respublika vaxtında hazırda dəstəklədiyi qüvvələr vasitəsilə Türkiyənin xarici, daxili siyasətinə təsir edə bilirdi.

> *İstər Fransa parlamentində, istər Avropa İttifaqı Parlamentində Azərbaycana qarşı qərəzli müzakirələrin keçirilməsinə səbəb olan amillərdən biri də məhz Ermənistanın davamlı təxribatlarıdır*

Narahatdır ki, prezidentli respublikada hakimiyyətin monolitliyi təmin olundu və prezidentdə hansısa istiqamətdən təsir etmək imkanları demək olar ki, aradan qalxdı. Bu da təbii ki, Qərbi çox qıcıqlandırır. Türkiyə bu gün özünün maraqlarına uyğun müstəqil siyasət yeritməkdədir, bu da Ərdoğanın hakimiyyəti dövründə baş verdi. Birincisi, Ərdoğanın hakimiyyəti dövründə Türkiyə özünün hərbi sənayesini inkişaf etdirdi, əhəmiyyətli dərəcədə xaricdən idxal olunan məhsullardan azad oldu. İstehlak məhsullarının xarici idxalın hesabına baş verməsinin özü siyasi təsir elementləri formalaşdırırdı. Bu gün demək olar ki, dünyanın bütün bazarlarına Türkiyədə istehsal olunan məhsullar ixrac olunmaqdadır. Bunun özü də Qərbi narahat edir.

Uzun illərdir, Türkiyə Avropa İttifaqına üzv qəbul edilmir. Avropa İttifaqına üzv qəbul olunacağı halda Türkiyənin Avropa məkanında siyasi və iqtisadi təsir imkanları əhəmiyyətli dərəcədə genişlənəcəkdir və Türkiyə Avropanın tam hüquqlu liderinə çevriləcəkdir. Bütün bunların qarşısını almaq üçün müxalifəti Ərdoğana qarşı dəstəkləmək lazım idi ki, Ərdoğan növbəti dəfə seçilməsin. Ona görə də seçkilər kifayət qədər gərgin keçdi, amma buna baxmayaraq Türkiyə elektoratı reallığı düzgün qiymətləndirməyi bacarır. Eyni zamanda dünyadakı proqressiv qüvvələr də Ərdoğanın hakimiyyətdə qalmasını istəyir.

Türkiyənin müstəqil siyasəti ona öz neytrallığını, təsirini, potensialını qorumağa imkan verir ki, Avropanın, ABŞ-ın əlində geosiyasi alətə çevrilməsin.

***- Erməni işğalı ilə regionda gərginliyin qalmasında maraqlı olan güclərin daxilimizə sızaraq ictimai mühitin məhz gənclərin ideoloji şüurunun korlanması yolu ilə idarə olunmasına yönəlik hansı təsirləri müşahidə olunur, bunun qarşısının alınması üçün hansı addımlar atılmalıdır?***

- Təəssüflə qeyd etmək lazımdır ki, hazırda müxtəlif informasiya platformaları üzərindən bütün ölkələrə olduğu kimi, Azərbaycana da təsirlər edilir. Xüsusilə də gənc nəslin sosiopsixoloji durumuna təsirlərə cəhdlər edilir. Kənar dəyərlərin gənc nəslə aşılanması istiqamətində işlər aparılır. Çox təəssüf ki, bir çox hallarda bunların nəticəsi də olur.

Təbii ki, internet dövründə belə halların qarşısını tam şəkildə almaq qeyri-mümkündür. Bütün hallarda bu təsirlərin sərhədlərinin məhdudlaşdırılması üçün imkanlar mövcuddur. Düşünürəm ki, biz hər şeydən öncə informasiya platformalarında kontenti özümüz formalaşdırmalıyıq. Yəni, öz milli maraqlarımıza, mental dəyərlərimizə uyğun informasiya bolluğunu təqdim etməliyik ki, orada artıq kənar təsir gücündə olan informasiyalara yer qalamasın. Hesab edirəm, ilkin addımlar orta məktəblərdə və ailədə atılmalıdır. Orta məktəblə ailənin bu istiqamətdə əməkdaşlığı təmin olunmalıdır ki, bizim yeniyetmələrimiz milli vətənpərvərlik ruhunda tərbiyə alsınlar. Belə olan halda, təbii ki, onlar bizim milli mental dəyərlərimizə uyğun elementləri mənimsəyəcək, kənar təsirlərdən azad olacaqlar.

Digər tərəfdən, milli maraqlarımızın nədən ibarət olduğunu davamlı şəkildə gənclərimizə aşılamaq lazımdır. Təbii ki, kənar təsirlər, prioritetlər bizim milli maraqlarımızla uyğunlaşmır. Hər bir təsir edən dairənin özünün marginal maraqları var və bu, bizim üçün zərərlidir. Bəli, baxın, Azərbaycanla enerji sahəsində əməkdaşlıqda maraqlı olanlar, bir çox hallarda ölkəmizə qarşı qərəzli mövqelər sərgiləyir. Məsələn, hazırda Fransanın TOTAL şirkəti enerji sahəsində Azərbaycana marağını nümayiş etdirir, amma bu ölkənin bizə qarşı qərəzli mövqeyi artıq sərhəd tanımır. Fransanın xarici işlər naziri Azərbaycanın ermənilər yaşayan ərazisini anklav adlandıraraq, ölkəmizin ərazi bütövlüyünü açıq şəkildə şübhə altına almış oldu. Biz təbii ki, belə qeyri-oyektiv yanaşmalarla rastlaşmalı oluruq. Reallıq ondan ibarətdir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin strateji baxışları, onun ölçülüb-biçilmiş addımları ölkəmizi bu cür təsirlərdən, təzyiqlərdən, qərəzli mövqelərdən qoruyaraq milli maraqlarımızın təmin olunması istiqamətində addımlarımızı keçərli edir.

***- İranın siyasi təxribatları fonunda Şimal-Cənub dəhlizinin gələcək aqibətini necə görürsünüz?***

- Hesab edirəm, Azərbaycan bütün hallarda nəqliyyat- logistika əməkdaşlığının inkişaf etdirilməsində maraqlıdır. Bizim həm coğrafi mövqeyimiz, həm də malik olduğumuz unikal nəqliyyat logistika infrastrukturu tranzit ölkə kimi əhəmiyyətimizi davamlı olaraq artırmaqdadır. Ona görə də biz istər Şimal-Cənub istiqamətində, istər Qərb-Şərq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsində maraqlıyıq. Bütün hallarda burada udan tərəf biz olacağıq. Bu, Azərbaycanın tranzit imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcəkdir. Baxın, Orta Dəhlizin gerçəkləşdirilməsində Azərbaycan mərkəzi rollardan birinə malikdir. Bu, gələcəkdə Avropa bazarının təchiz olunmasında Azərbaycanın alternativsiz yerini şərtləndirəcək. Çindən Xəzər dənizinə, Xəzər dənizi üzərindən Azərbaycana, oradan Gürcüstan üzərindən Türkiyəyə keçməklə malların Avropa bazarına çatdırılması ölkəmizin Avropa bazarlarındakı yerini təyin edəcək.

Bu, tək iqtisadi xarakterli olmayacaq, həm də Azərbaycanın siyasi imkanlarını genişləndirəcək. Hər hansı bir ölkənin hər hansı bir coğrafiyada bazarlara təsir imkanları varsa, o ölkə özünün milli maraqlarını da daha uğurla, daha inamla müdafiə etmək imkanı qazanacaq. Ayrıca olaraq cənab Prezidentin təşəbbüsü ilə 2020-ci il 10 noyabr üçtərəfli bəyanatın 9-cu bəndində Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında Zəngəzur dəhlizinin açılması məsələsi ifadəsini tapıb. Zəngilan dəhlizi gələcəkdə çox mühüm nəqliyyat-logistika infrastrukturunun ən təsirli komponentlərindən birini təşkil edəcək. Buraya həm Şimal-Cənub nəqliyyat dəhlizi, həm Orta Dəhliz, həm də tarixi İpək yolu aiddir. Bu baxımdan, Azərbaycan nəqliyyat-logistika imkanları ilə ölkəmizin iqtisadi imkanlarına təkan vermək imkanlarına malikdir.

✍ ***Tahirə Qafarlı***

# Laçının işğalına aparan yol

## Müsahib



**Əlisaab Orucov,**
Müstəqil Azərbaycan Respublikasının ilk ədliyyə naziri

***Müstəqil Azərbaycan Respublikasının ilk ədliyyə naziri olmuş Əlisaab Orucovla «Həftə içi» üçün budəfəki söhbətimizdə o, Prezidentin keçmiş Dağlıq Qarabağ və Ermənistanla sərhədyanı bölgələr üzrə səlahiyyətli nümayəndəsi kimi 31 il öncə - 1992-ci ilin mayında Şuşa və Laçının işğalı ərəfəsində və həmin günlərdə şahidi olduğu fakt və hadisələr, işğalın qarşısının alınması üçün görə bildiyi tədbirlər, həmçinin sözügedən bölgələrin işğalının səbəbləri barədə danışdı.***

(əvvəli ötən sayımızda)

***- Əlisaab müəllim, artıq Şuşanın işğal edilməsi haqda məlumat tam dəqiqləşdirildikdən sonra bu tarixi, qədim şəhərimizin, Qarabağdakı təbii qalamızın düşməndən azad olunması üçün faktiki dövlətin başçısı olan Yaqub Məmmədov və onun səlahiyyətli nümayəndəsi kimi siz hansısa tədbirlər görə bildinizmi?***

- Əvvəla, məlumat üçün bildirim ki, respublika Prezidentinin cəbhə bölgələri üzrə səlahiyyətli nümayəndəsi olduğum dövrdə, yəni 8 aprel 1992-ci ildən 2 iyul 1992-ci ilədək - 2 ay 22 gün ərzində Azərbaycanda 4 dəfə dövlət başçısı-Prezident dəyişdirilib. Bu müddətdə respublikaya başçılıq edənlər Ali Sovetin sədri və Prezident səlahiyyətlərini həyata keçirən Yaqub Məmmədov, ardınca eyni vəzifədə eyni səlahiyyətləri icra etmiş İsa Qəmbərov, prezidentlər Ayaz Mütəllibov və Əbülfəz Elçibəy olmuşlar.

Həmin müddətdə faktiki döyüş, hərbi əməliyyat bölgələrində fəaliyyət göstərən vəzifəli şəxs kimi mənə heç bir hərbi səlahiyyət verilmədi. Odur ki, hərbi işlərə, proseslərə birbaşa müdaxilə etməyim də qadağan edildi. Bəzən döyüş bölgələrində yaranmış ekstremal vəziyyətə uyğun olaraq qarışmağa məcbur olduğum hərbi əməliyyatlar isə yarımçıq dayandırılır, pozulurdu. Hətta mənim tövsiyəmlə düşmənin təcavüzünə cavab olaraq müdafiə və ya hücum əməliyyatına başlamış hərbi komandirlər ölkənin siyasi-hərbi komandanlığı tərəfindən cəzalandırılır; onlar bir müddət vəzifələrindən kənarlaşdırılır, yaxud fiziki zorla müşayiət olunan hücumlara, sui-qəsdlərə məruz qoyulurdular...

Məsələn, 27 aprel 1992-ci ildə Ermənistanın Zəngilan rayonuna genişmiqyaslı hücumundan və bir neçə kəndimizi işğal etməsindən sonra mənim tövsiyəmlə həmin rayonun Şayıflı kəndi istiqamətindən Qafan-Meğri istiqamətində qarşı əks-hücuma keçmiş və düşmənin legitim hədəflərini zərərsizləşdirmiş rayonun hərbi komendantı İldırım Məmmədov və onun tabeliyindəki döyüşçülər müdafiə naziri Rəhim Qazıyevin əmri ilə geri çəkilməyə məcbur edilmişlər. Amma Zəngilanın hərbi komendantına qarşı təzyiq və təqiblər bununla bitməmişdir. İldırım Məmmədovun başına gələnlər barədə ətraflı onun öz dilindən "Mübarizəmiz Qarabağdadır" kitabımda da bəhs edilib. Polkovnikin söylədiklərindən belə məlum olur:

"Bəhs edilən hücum əməliyyatından 27 gün sonra - 1992-ci il mayın 24-də Zəngilanda rəhbərlik etdiyim hərbi komendaturanın qərargahında müdafiə nazirliyindən gəlmiş iki zabit və tabeliyimdə olan 4 hərbçinin iştirakıyla rayondakı vəziyyəti və qarşıda duran vəzifələri müzakirə edirdik. Gözlənilmədən bir qrup silahlı şəxs qərargaha hücum etdi. Həmin dəstədən iki nəfər biri əl qumbarası, digəri isə avtomatla müşavirə keçirdiyimiz otağa daxil oldular.

Onlar heç bir əsas olmadan bizi tərksilah edərək dedilər ki, aprelin 27-də özbaşına Qafan istiqamətində etdiyiniz hücuma görə hamınızı aparıb Ermənistana təhvil verəcəyik, buna görə özünüz ermənilərə cavab verərsiniz. Sonradan məlum oldu ki, bu xəyanətkar silahlı dəstədən daha 3 nəfər otağın qapısının ağzında dayanıb, digərləri isə binanı mühasirəyə alıbmış. Onların planı bizi binadan düşürərək maşınlara mindirib aparmaq olub". Bundan sonra əsl peşəkar hərbçi olan İldırım Məmmədov zirehli gödəkçəsinin alt cibində gizlətdiyindən tapa bilmədikləri tapançadan və xüsusi fəndlərdən istifadə edərək içəridəki və qapıda dayanan canilərdən ikisini qətlə yetirib, birini yaralayıb digərlərini isə tərksilah etməyi bacarıb. Lakin otağa daxil olanlardan biri əlindəki qumbaranı partlatdığından onun qəlpələri 5 yerdən komendantın başını yaralayıb, digər hərbçilərdən ikisi də yaralanıb.

Kənarda gözləyən canilər isə vəziyyətin belə olduğunu görərək qaçmağa məcbur olublar. Zəngilan rayon prokurorluğu hadisə üzrə cinayət işi qaldırıb. Və polkovnik İldırım Məmmədov iki nəfər canini zəruri özünümüdafiə şəraitində qətlə yetirdiyinə görə cinayət məsuliyyətinə cəlb olunmayıb. Komendantlığa hücum edən dəstə üzvləri cinayət məsuliyyətinə cəlb olunsa da, təəssüf ki, onların bu günədək əmri kimdən aldıqları bizə məlum olmayıb.

***- Bəs dediyiniz çətinliklərə rəğmən siz və o dövrdəki dövlət başçısı Şuşanın azad edilməsi və Laçının müdafiəsi üçün konkret hansı tədbirləri görə bildiniz?***

- Şuşanın işğalından sonra, mayın 9-da Ağdama gəlmiş Yaqub Məmmədov Ağdamdan Gəncəyə Rəhim Qazıyevin arxasınca yollandıqda mənə hər nə olursa-olsun, Ağdamı tərk etməməyi tapşırmışdı... Rəhim Qazıyev mayın 9-da Yaqub Məmmədova bildirmədən respublikadan kənarda - əvvəlcə Moskvada, sonra da Daşkənddə olub yalnız mayın 15-də Bakıya qayıtmışdı. Həmin ərəfədə Ağdamda olduqca ağır vəziyyət yaranmışdı... Əsgəranın Naxçıvanlı("Naxçıvanik") yüksəkliyindən ermənilər Ağdam şəhərinin mərkəzinə artilleriya zərbələri endirirdilər...

> *Onlar heç bir əsas olmadan bizi tərksilah edərək dedilər ki, aprelin 27-də özbaşına Qafan istiqamətində etdiyiniz hücuma görə hamınızı aparıb Ermənistana təhvil verəcəyik*

Mayın 10-da Qarabağ rayonlararası prokuroru Şükür Rzayevi yanıma dəvət edib topladığım arayış və izahatların surətlərini ona təqdim etməklə Şuşanın işğalıyla bağlı cinayət işi başlamasını tapşırdım. O da cinayət işini başlatdı...

Həmin gün Azərbaycan Xalq Cəbhəsinin Ağdamda olan fəalları rəhbərlik etdiyim səlahiyyətli nümayəndəliyin qərargahı qarşısında, Şuşanın işğalına səbəb olan faktları yoxladığıma və cinayət işi başlatdığıma görə mənə qarşı piket təşkil etmişdilər... Mayın 12-də axşam nazirlər Kabinetinin sədri Feyruz Mustafayev Ağdama zəng edib Laçına getməyimi və Şuşanın işğalından sonra Laçında yaranmış vəziyyəti öyrənib ona məlumat verməyimi tapşırdı. Aydın Kazımovla birlikdə həmin gün vertolyotla Qubadlıya uçdum. Gec olduğuna görə Qubadlıda gecələməyi qərara aldım... Həmin axşam biz Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Əsədovun kabinetinə getdik.

Orada üçümüz Şuşanın vəziyyəti ilə bağlı söhbət edərkən otağa bir nəfər ortaboylu döyüşçü daxil olub bildirdi ki, guya Şuşa hələ özümüzdədir və hazırda şəhərdə möhkəm döyüşlər gedir. Şuşanın müdafiəsini möhkəmlətmək üçün oraya əlavə silahlı qüvvələr cəlb olunur. Halbuki mayın 8-də Şuşanın düşmən tərəfindən işğal olunması mənə məlum idi...

İcra başçısıyla həmin adamı başqa otağa keçirib onunla söhbət etdikdə müəyyən etdik ki, o, təxribatçıdır. O, ifşa olunduğunu görüb çıxıb getdi... Biz Şuşanın geri alınması üçün hücuma hazırlaşan çoxlu sayda canlı qüvvəmiz və hərbi texnikamızın Turşsu yaxınlığında olmasına dair söhbətimizi davam etdirərkən otağa hündür boylu daha bir hərbçi daxil oldu və üzünü Hüseyn Əsədova tutub dedi: "Məni şəxsən sizin yanınıza hazırda Yevlaxda olan respublikanın müdafiə naziri Rəhim Qazıyev göndərib.

▸▸ Səh. 5

# Heydər Əliyevin əsasını qoyduğu neft strategiyası

Layihə

***Azərbaycan dünyada zəngin təbii sərvətlərə malik ölkələrdən biridir. Ancaq etiraf etməliyik ki, xalqımızın hər zaman bu sərvətlərdən bəhrələnmək imkanı olmayıb. Yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun dühasının məhsulu olan yeni neft strategiyası və həmin strategiyanın reallaşdırılması üçün hazırlanmış neft diplomatiyası nəticəsində Azərbaycan xalqı bu imkanı əldə edə bilib. Qeyd edək ki, 1969-cu ildən başlayaraq Azərbaycanın xalq təsərrüfatının bütün sahələri kimi neft və qaz sənayesinin də yüksək dinamik inkişaf mərhələsinə qədəm qoyması ilə səciyyələnir.***



Bu dövrdə Azərbaycanın neft və qaz sənayesinin inkişaf tarixində yeni mərhələ başlayır.1971-ci ildə ulu öndər Heydər Əliyevin iştirakı ilə Azərbaycanda 1 milyardıncı ton neftin hasilatının qeyd edildiyi təntənəli mərasim keçirilir. Heydər Əliyevin təşəbbüsü və böyük səyi nəticəsində 70-80-ci illərdə Azərbaycanda neft sənayesinin inkişafına təkan verən 75 növdə 400-dən çox ağır yük qaldıran kran gəmisi, boruçəkən gəmilər, seysmik, sərnişin və s. gəmi növləri gətirilir. Xəzərdə 2500 t gücündə "Azərbaycan" kranı, "Xəzər" tipli özüqalxan, sonralar isə dənizin 200 m dərinliyindəki sahələrdə işləməyə imkan verən "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yaranır. Nəticədə 60-cı illərin sonu ilə müqayisədə yeni 8 neft və qaz yataqları kəşf edilir, neft ehtiyatları iki, qaz ehtiyatları isə üç dəfə artırılır. 1975-ci ildə neft və qazın ümumi hasilatı 27,1 mln. t-a (şərti yanacaq) çatdırılır. 80-ci illərdə üzən qazma qurğularının sayı 11-ə çatır və onlardan istifadə nəticəsində, indi Azərbaycan neftinin əsas hissəsini təşkil edən dənizin 80-350 m dərinlikdə yatan zəngin neft ehtiyatlarına malik olan yataqlar (Günəşli, Çıraq, Azəri və b.) kəşf olunur.

O dövrdə məhz böyük siyasətçi Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ilk dəfə olaraq Azərbaycanda neft emalı üçün xüsusi proqram hazırlanır və həyata keçirilməyə başlanır. Həmin proqrama əsasən yeni texnika və texnologiyaya malik zavodlar yaradılır, təzə qurğular inşa olunur. Həmin illərdə dünyada analoqu olmayan Dərin Dəniz Özülləri zavodunun Azərbaycanda, Bakıda tikilməsi üçün o zaman sovetlər məkanında 450 milyon dollarının ayrılması, bunun üçün Moskvadan belə bir icazənin alınmasına nail olunması (bu zavodun Həştərxanda tikilməsi nəzərdə tutulmuşdu) cənab Heydər Əliyevin möhkəm iradəsinin və cəsarətinin nəticəsi idi. Zavodun tikilməsinə 1978-ci ildə başlandı və 1989-cu ildə istismara verildi. Bütün bunlar Azərbaycanın ümummilli lideri Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsi idi. O, çox gözəl anlayırdı ki, görülən bütün bu nəhəng işlər gələcəkdə müstəqillik qazanacaq Azərbaycanın istiqadi müstəqilliyinin əsasını təşkil edəcəkdir. Tarix ümummilli lider Heydər Əliyevin haqlı olduğunu sübut etdi.

1993-cü ildə ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı respublikamızın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoymaqla yanaşı, neft müqaviləsi üzrə müzakirələrə, danışıqlara faktiki olaraq yenidən başlanması reallaşdırdı və nəhayət, çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri əldə edildi.

Dahi şəxsiyyətin işləyib hazırladığı yeni neft strategiyasının reallaşdırılmasında onun ən böyük silahdaşı məhz o zaman Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olan İlham Əliyev idi. Həmin dövrdə Vaşinqton, Nyu-York, Hyuston, Dallas, İstanbul və digər şəhərlərdə iri neft şirkətlərinin rəhbərləri ilə səmərəli görüşlər keçirən və danışıqlar aparan İlham Əliyev xalqımızın milli maraqlarını tam təmin edən müqavilə şərtlərinin əldə edilməsi üçün gərgin əmək sərf edib.

Beləliklə, seçilən düzgün yol, aparılan gərgin iş öz bəhrəsini verir. 1994-cü il sentyabrın 20-də Bakı şəhərinin "Gülüstan" sarayında XX əsrin ən böyük iqtisadi layihələrindən olan, tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adı ilə bütün dünyada məşhurlaşan saziş imzalanır. Bakıda dünyanın 8 ölkəsini təmsil edən yüksək nüfuza malik, neft hasilatı üzrə ixtisaslaşmış 13 iri neft şirkəti arasında "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənilməsini nəzərdə tutan bu irimiqyaslı beynəlxalq müqavilə müasir Azərbaycanın tarixində və taleyində mühüm rol oynayıb. "Əsrin müqaviləsi" ilə Azərbaycan özünün təbii sərvətlərinə sahib çıxmaq haqqını bütün dünyaya bəyan etdi, milli mənafelərimizi, iqtisadi və strateji maraqlarımızı qorumaq əzmini göstərdi. Bu müqavilə dövlət müstəqilliyimizin mühüm təminatına çevrildi. "Azəri-Çıraq-Günəşli" yataqlarından hasilat isə 1997-ci ilin noyabr ayında başladı.

"Əsrin müqaviləsi"nin imzalanması mərasimində ulu öndər Heydər Əliyev bu tarixi hadisəyə qiymət verərək deyib: "Mən bu müqavilənin hazırlanmasında, imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hesab edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər".

Bu müqavilənin imzalanmasından sonra əldə olunan nailiyyətlərə nəzər yetirdikdə aydın olur ki, hazırda Azərbaycanın dünyanın aparıcı enerji təchizatçısına çevrilməsi heç də təsadüfi deyil. Belə ki, "Əsrin müqaviləsi" respublikada neft hasilatının böyük həcmdə artmasına səbəb olub. Neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən - 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatıb. Başqa sözlə, hasilat 5,6 dəfə artıb.1996-cı ilin yanvarında Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql olunması haqqında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalanıb. 1997-ci ilin oktyabrında həmin boru xətti istifadəyə verilib. 1998-ci ildə AÇG nefti fəaliyyəti bərpa edilmiş Bakı-Novorossiysk kəməri ilə Qara dəniz limanlarına ixrac edilməyə başlayıb.

"Əsrin müqaviləsi" çərçivəsində hasil ediləcək böyük neft həcmləri ilə müqayisədə bu kəmərin ötürücülük qabiliyyəti məhdud olduğundan ixrac boru kəmərlərinin çoxvariantlılığının zəruriliyi məsələsi gündəmə gəldi və alternativ variantlar üzərində ciddi iş aparılmağa başlanıldı. 1997-ci ildə Azərbaycan neftinin Bakı-Supsa marşrutu ilə nəqli haqqında ölkəmizlə Gürcüstan arasında saziş imzalandı. 1999-cu ilin aprelində Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi.

Lakin bu da kifayət etmirdi. Bakı-Supsa və Bakı-Novorossiysk boru kəmərləri Azərbaycanın getdikcə artan iri neft həcmlərini dünya bazarına ixrac etmək gücündə deyildi. Məhz buna görə də əsas ixrac neft boru kəmərinin qısa zamanda inşası zərurəti yarandı. Belə olan təqdirdə ulu öndər Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəməri ideyasını gündəmə gətirdi. Respublikamızın həm daxildəki, həm də xaricdəki bədxahları beynəlxalq ictimai rəydə guya Azərbaycanın gələcəkdə bu kəmərlə ixrac etmək üçün kifayət qədər nefti olmayacağı barədə fikir yaratmağa çalışır, bu ideyanı utopiya hesab edirdilər. Lakin zaman ulu öndər Heydər Əliyevin bu konsepsiyasının tamamilə real, həm də iqtisadi cəhətdən səmərəli olduğunu göstərdi.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

2002-ci ildə Ulu Öndərin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyuldu. Bundan dörd il sonra Azərbaycan nefti BTC kəməri vasitəsilə Ceyhan limanına çatdırıldı. Hazırda bu kəmərin əhəmiyyəti bütün dünyada birmənalı etiraf olunur.

Bu gün Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, eyni zamanda, ümumilikdə beynəlxalq enerji təhlükəsizliyi sistemi baxımından, eləcə də neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən ölkələr, xüsusilə Mərkəzi Asiya dövlətləri üçün də müstəsna əhəmiyyət kəsb edir.

Kəmərin illik ötürücülük qabiliyyəti 50 milyon tondur ki, bunu da gələcəkdə 60 milyon tona çatdırmaq mümkündür. 1768 kilometr uzunluğa malik BTC boru kəməri 2006-cı ilin iyununda istismardadır. Hazırda bu kəmərlə Azərbaycandan əsasən AÇG nefti və "Şahdəniz" kondensatı ötürülür. Bundan əlavə, kəmər vasitəsilə Türkmənistan və Qazaxıstan nefti də nəql olunur. İndiyədək Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə 3,87 milyard barreldən çox neft nəql olunub və Ceyhan limanında təqribən 5000 tankerə yüklənərək dünya bazarına göndərilib. Cari ilin yanvar-avqust aylarında bu kəmər vasitəsilə 19 milyon 2,7 min ton Azərbaycan nefti, həmçinin 3 milyon 12,7 min ton tranzit nefti nəql edilib.

2017-ci il sentyabrın 14-də daha bir tarixi hadisənin şahidi olduq. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirildi. "Yeni Əsrin müqaviləsi" adlandırılan bu sazişi Azərbaycan Hökumətinin, SOCAR-ın, BP, "Chevron", "Inpex", "Statoil", "ExxonMobil", "TP", "Itochu" və "ONGC Videsh" şirkətlərinin rəsmiləri imzaladılar. Bununla da, "Azəri-Çıraq-Günəşli" nəhəng neft yatağının işlənilməsində yeni dövr başladı. Yeni Sazişin ölkəmiz üçün çox böyük əhəmiyyəti var. Əvvəla, "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi 2050-ci ilədək uzadıldı. İkincisi, bu Sazişin şərtləri Azərbaycan üçün daha əlverişlidir. Yeni Sazişə əsasən, SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırıldı. Beynəlxalq tərəfdaş şirkətlər Azərbaycan Respublikasının Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcək. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək. Beləliklə, ölkənin ümumi mənfəət göstəricisi 89,1 faiz təşkil edəcək ki, bu da gələcəkdə yeni strateji layihələrə başlamağa zəmin yaradacaq.

***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycanda bu gün, təxminən, 5 faiz idarəolunan suvarma sistemlərindən istifadə olunur. Bunu kənd təsərrüfatı naziri Məcnun Məmmədov Aqrar İnnovasiyalar Forumunda çıxışı zamanı deyib. O bildirib ki, bu rəqəm kifayət qədər azdır: "Bizim ana hədəflərimizdən biri bunun miqyasını genişləndirməkdir".

■ Polşa hökuməti F-16 qırıcılarını Ukraynaya verməyə hazır deyil. Bunu Polşa Respublikasının Prezidenti Andjey Duda Avropa Şurasının İslandiyanın paytaxtı Reykyavikdə keçirilən sammiti çərçivəsində jurnalistlərin suallarını cavablandırarkən deyib.

■ 28 May Müstəqillik Günü ilə əlaqədar ardıcıl 3 gün iş olmayacaq. Bu il 28 may bazar gününə təsadüf etdiyi üçün iş və istirahət günlərinin yeri dəyişdiriləcək, 29 may qeyri-iş günü olacaq. Beləliklə, 27 may da şənbəyə təsadüf etdiyi üçün 3 gün ardıcıl - 27 may, 28 may və 29 may tarixlərində iş olmayacaq.



■ Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) Suriyada PKK terror təşkilatına qarşı əməliyyatlarını davam edir. MİT-in Suriyanın Sirrin/Ayn İsa bölgəsində keçirdiyi əməliyyatla PKK-nın maliyyə koordinatoru Tuba Karakoç zərərsizləşdirilib. Qeyd edək ki, Tuba Karakoç 2013-cü ildə PKK-ya qoşularaq Türkiyə, İraq və Suriyanın bir çox bölgələrində fəaliyyət göstərib.

■ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin yanvar-aprel aylarında proqnozla müqayisədə 6 faiz və ya 116 mln. manat çox olmaqla 2 mlrd. 118 mln. manat təşkil edib. Son 4 ayda DSMF-nin xərcləri isə ötən ilin müvafiq dövrünə nisbətən 13 faiz və ya 237 mln. manat artaraq 2 mlrd. 003 mln. manata çatıb.



■ Fransanın keçmiş prezidenti Nikola Sarkozi saxlanılıb. Sabiq dövlət başçısı "telefonların dinlənilməsi" ilə bağlı açılan cinayət işində təqsirkar bilinib və 3 il müddətinə azadlıqdan məhrum edilib.

■ "Google" istifadəçi bazasını qorumaq üçün qeyri-aktiv hesabları silləcəyini açıqlayıb. Bu ilin dekabrından başlayaraq iki il ərzində istifadə olunmayan hesablar "Google Workspace", "YouTube" və "Google Fotolar" kimi xidmətlərdə saxlanılan məzmunla birlikdə serverlərdən silinəcək.

■ Fransa Prezidenti Emmanuel Makron özünü ABŞ-ın vassalı kimi hiss edir. Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib. "Makron özünü ABŞ-ın vassalı kimi hiss edir. O, bundan çox narahatdır. Amma Makron bununla bağlı heç nə edə bilməz", - Lavrov bildirib.

# Dövlət Departamentinin hesabatı anti-Azərbaycan xarakteri daşıyır




**"Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti bu günlərdə dünyada dini azadlıqların vəziyyətinə dair növbəti illik hesabatı dərc edib. Hesabatda Azərbaycan və Ermənistana dair hissələr yer alır.**

Hər iki hissə mahiyyəti üzrə qeyri-obyektiv olmaqla açıq-aşkar anti-Azərbaycan xarakteri daşıyır". Bu barədə Qərbi Azərbaycan İcmasından bildirilib. Qeyd edilib ki, Azərbaycanda erməni dini abidələri ilə bağlı əsassız iddialara geniş yer verən Dövlət Departamenti, nədənsə Ermənistandan azərbaycanlıların etnik və dini nifrət zəminində tamamilə qovulması, bu ölkədə vaxtilə dövlət tərəfindən qeydiyyatdan keçmiş 300-ə yaxın məscidin və azərbaycanlılara məxsus bütün digər dini və mədəni irsin dağıdılması faktlarını görməzdən gəlir.

"Dövlət Departamentinin sözügedən hesabatında Azərbaycan ilə bağlı iddiaların yeganə mənbəyi kimi ABŞ-ın Kornel Universitetinin, əslində isə "Ümumerməni Xeyriyyə İttifaqı", "Aragats Fondu" kimi ekstremist təşkilatlar tərəfindən maliyyələşdirilən üç radikal millətçi erməni müəllifin (L. Xaçaturyan, H. Qulyan, S. Bokçeriyan) yazdıqları iftiranın göstərilməsi bu hesabatın qərəzli olmasını sübut edir.

Biz ABŞ Dövlət Departamentini hesabatın həmin hissələrini redaktə etməyi, əsassız iddiaları çıxarmağı və Ermənistanda tüğyan edən Azərbaycanafob meylləri və Azərbaycanın dini və mədəni irsinin, o cümlədən, məscidlərin və qəbiristanlıqların dağıdılması kimi dini azadlıqların sistematik şəkildə pozulması faktlarını əks etdirməyə çağırırıq. Həmçinin, ABŞ hökuməti Ermənistanı sözügedən irsi dağıtmasını dayandırmağa və artıq dağıtmış olduqlarını bərpa etməyə məcbur etmək üçün səylər göstərməyə çağırırıq.

Nəhayət, ümid edirik ki, bizim ABŞ-ın Dövlət Katibi Entoni Blinkenə müraciətimizə uyğun olaraq, ABŞ hökuməti Ermənistanı qovulmuş azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmalarının təmin edilməsi və qayıtdıqdan sonra onların orada hüquq və azadlıqlarının, o cümlədən, dini azadlıqlarının qorunması üçün müvafiq səylər göstərəcək", - məlumatda vurğulanır.

# Ölkədə daha bir neçə bank bağlana bilər




**Azərbaycanda bundan sonra da bankların azalması prosesini proqnozlaşdıra bilərik. Bunu Trend-ə iqtisadçı ekspert Elşad Məmmədov deyib.**

O bildirib ki, bankların fəaliyyətinin dayandırılmasının tərəfdarı deyil. "Düşünürəm ki, banklar daha çox sağlamlaşdırmaya məruz qalmalıdır. Bunun üçün isə biz ilk növbədə bankların birləşməsi və onların həm öhdəlikləri, həm aktivləri daxilində ciddi keyfiyyət dəyişikliklərinə nail olmalıyıq. Təəssüf ki, bizim banklar real olaraq birləşməyə getmir. Bir tərəfdən də bizim banklarin həm öhdəliklər, həm də aktivlər baxımından çox böyük problemləri var. Bankların sağlam bank sektorunda öhdəlikləri ölkədaxili resurslara söykənməlidir, müvafiq depozit bazası yaradılmalıdır", - deyə E.Məmmədov vurğulayıb. Onun fikrincə, digər tərəfdən Mərkəzi Bank banklara məqsədli, ünvanlı kredit resursları təmin etməlidir ki, o kredit resursları idarə olunsun. "Eyni zamanda bankların aktivlərində də köklü dəyişikliklərə nail olunmalıdır. Yəni bizim banklar biznesə və istehsala yönəlik uzunmüddətli investisiya mənbəyinə çevrilməlidir. Zənnimcə bankların azalması prosesi davam edəcək və bunun qarşısını almaq üçün qeyd olunan məsələlər öz həllini tapmalıdır", - deyə o əlavə edib. Qeyd edək ki, "Günay Bank" ASC-nin lisenziyası 17 may 2023-cü il tarixindən etibarən ləğv edilib və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunub.

Belə ki, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 16 may 2023-cü il tarixli Qərarı ilə məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olduğuna, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olmasına, habelə cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə görə "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 16.1.6-cı, 16.1.7-ci, 16.1.9-cu və 61.1-ci maddələrinə əsasən "Günay Bank" ASC-nin lisenziyası 17 may 2023-cü il tarixindən etibarən ləğv edilmiş və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunub.

# Nəticəsi ikinci turda bilinən seçkilər

***Qardaş ölkə Türkiyədə mayın 14-də keçirilmiş seçkilərdə millət vəkili mandatlarının sahibləri bəlli olsa da, Prezident kürsüsü hələlik boş qalıb. Bu səbəbdən də iki həftə aradan sonra - mayın 28-də ikinci tur seçkiləri olacaq və türk xalqı öz Prezidentini müəyyənləşdirəcək.***

Araşdırma



Bu yerdə qeyd edək ki, Türkiyənin siyasi tarixində heç vaxt indiki kimi ikinci tur prezident seçkisi keçirilməyib. Avropanın və Amerikanın uzun illərdir zədələməyə çalışdığı, şər-böhtanla gözdən salmaq üçün hər şeyi etdiyi türk demokratiyası qarşısında hələlik susqunluq nümayiş etdirən Qərbin cavabını? əlbəttə, Türkiyə vətəndaşları 28 may tarixində layiqincə verəcək, buna söz ola bilməz.

**Amma maraqlıdır, seçkinin ikinci tura qalması təsadüfdür, yoxsa zərurət? Axı bu turu tamamlamaq üçün rəqiblərdən birinin çox cüzi sayda səsə ehtiyacı vardı...**

Əslində, qardaş ölkədə səsvermənin ikinci tura qalması narahatverici deyil, çünki bunun dünya tarixində analoqları istənilən qədərdir. Bu turlarda, əsasən, ilk mərhələdə ən çox səs yığan namizəd qələbə çalsa da, növbəti turda ikinci yerin sahiblərinin hamını təəccübləndirərək rəqibini üstələdiyi hallar da az olmayıb.

Beləliklə, maraqlı olar deyə, son 5 il ərzində dünya ölkələrində keçirilmiş ikinci tur seçkilər haqqında məlumatı oxucularla bölüşək.

İlk olaraq Türkiyədən bəhs edək. Qardaş ölkədə Prezidentin ümumxalq səsverməsi ilə seçilməyə başladığı 2014-cü ildə etibarlı səslərin 51,79 faizini, 2018-ci ildə isə 52,54 faizini toplayan Rəcəb Tayyib Ərdoğan ilk turda prezident seçilməyi bacarıb. Amma 2023-cü ilin məlum 14 may seçkilərində prezidentliyə namizədlərdən heç biri lazımi səsi toplaya bilməyib. Hazırkı Prezident Rəcəb Tayyib Ərdoğan etibarlı səslərin 49,5 faizini ala bildiyi halda, müxalifətin təmsilçisi Kamal Kılıçdaroğlu 44,89 faiz səs yığıb. Cümhuriyyət tarixində ilk dəfə təkrar seçkiyə doğru irəliləyən qardaş ölkədə Ərdoğanla Kılıçdaroğlu arasındakı rəqabətə məhz ikinci turda son qoyulacağı şübhəsizdir.

Dünyanın əksər dövlətlərində 50 faiz, Cənubi Amerikada isə 40 faiz baryerin tətbiq olunduğu birinci tur seçkilərdən sonra bir çox ölkədə ikinci tur seçkilərdə fəallığın artdığı görülür. Ümumi tendensiya ilk turda ən çox səs toplayan namizədin ikinci mərhələdə qalib gəlməsi ilə bağlı olsa da, Uruqvay, Monteneqro və Ekvador kimi bəzi Güney Amerika ölkələrində birinci turu ikinci yerdə tamamlayan namizədlər ikinci turda seçkini qazana biliblər. Braziliya və Polşa kimi bəzi inkişaf etmiş ölkələrdə isə ilk turda ikinci sırada olan namizədlər ikinci turda fərqi böyük ölçüdə daraltsalar da, nəticə etibarı ilə qalib gələ bilməyiblər.

Gəlin son 5 ildə ikinci tura keçən 20 seçkinin nəticələrinə dair təfərrüatlara nəzər yetirək:

2022-ci ildə Braziliyada keçirilmiş seçkilərdə izlədiyi ifrat sağçı siyasətləri ilə diqqət çəkən hazırkı prezident Jair Bolsonaro solçu rəqibi Lula da Silva ilə yarışıb. Gərgin atmosferdə keçən ikinci tur seçkilərində nəticələr dəyişmədiyi halda birinci turda Lula da Silva 48 faiz, Bolsonaro isə 43 faiz səs toplayıb. Bolsonaro rəqibi ilə arasındakı 6 milyondan çox səs fərqini 2 milyondan aşağı azaltsa da, ikinci turda etibarlı səslərin 49,1 faizini toplayaraq prezident kreslosunu itirib. Seçkidə iştirak nisbəti 79 faiz səviyyəsində sabit qalıb. 2023-cü ildə Çexiyada keçirilmiş seçkilərin ilk turunda səslərin 35,4 faizini Petr Pavel, 35 faizini isə Andrej Babis alıb. Odur ki, seçkinin ikinci turu keçirilib. Yanvarın 27-28-də keçirilən ikinci tur seçkilərdə ilk turda cəmi 23 min səs fərqini təxminən 1 milyona çatdıran Avropayönlü və NATO tərəfdarı Pavel etibarlı səslərin 58 faizini alaraq prezident seçilib.

Birinci turda 68 faiz olan seçici fəallığı ikinci turda yüzdə 70 olaraq ölçülüb.

2021-ci il fevralın 7-də Ekvadorda keçirilən birinci tur seçkilərdə 32,7 faiz səs toplayan Andres Arauz ən yaxın rəqibini qabaqlasa da, 40 faizlik baryeri keçə bilmədiyi üçün seçki ikinci turda mübarizə aparmalı olub. Yarışı cəmi 32 min səslə üçüncü rəqibi Yaku Peresi qabaqlayaraq ikinci olan Gilermo Lasso etibarlı səslərin 19,74 faizini qazanaraq ikinci turda Arauzun rəqibi olub. İkinci tur seçkilər isə birinci tura tamamilə əks nəticələr verib. İkinci tura keçə bilməyən rəqiblərinin səsini almağı bacaran Lasso rəqibi ilə fərqi aradan qaldıraraq səslərin 52 faizinə çatıb və Ekvadorun yeni dövlət başçısı seçilib. İlk turda 81 faiz olan iştirak nisbəti ikinci turda yüzdə 84 olaraq qeyd edilib.

2022-ci il aprelin 24-də Fransa keçriilən seçkilərdə hazırkı prezident Emmanuel Makron yüzdə 27,9 səslə birinci turu tamamlayarkən, ifrat sağçı Milli Birlik Partiyasının lideri Marin Le Pen də 23 faizlə ikinci tura keçə bilib. İkinci tur seçkilərində rəqibi ilə 1,6 milyon səs fərqini 5,5 milyona yüksəldən Emmanuel Makron 58,5 faiz səslə yenidən Fransa prezidenti seçilib. Maraqlıdır ki, birinci turda 73,6 faiz olan seçici fəallığı ikinci turda 72 faizə enib.

2019-cu il iyunun 16-da Qvatemalada keçirilmiş seçkilərdə ilk turunda 25 faiz səs toplayan Sandra Torres və 13,8 faiz səs alan Alexandro Giammattei ikinci tura vəsiqə qazanıblar. Avqustun 11-də keçirilən səsvermənin ikinci turunda arxadan gələn Giammattei səslərin 58 faizini toplayaraq önə keçib və qalib gəlib.

Birinci turda səs verən 1,5 milyon insan ikinci turda seçkiyə getməyib və seçici fəallığı kəskin şəkildə aşağı düşüb.

2023-cü il fevralın 5-də Kiprdə (Cənubi Kipr - V.T.) keçirilmiş prezident seçkilərinin ilk turunda 32 faiz səs toplayan Nikos Hristodulidis və 29,5 faiz səs toplayan Andreas Mavroyiannis ikinci tura vəsiqə qazana bilib.

Seçkilərdə iştirakın yarım bal artdığı ikinci turda rəqibi ilə fərqi qorumağı bacaran Hristodulidis etibarlı səslərin 52 faizini alaraq Kiprin yeni lideri olub.

2018-ci il oktyabrın 28-də Gürcüstanda keçirilmiş seçkilərdə heç bir namizəd 50 faizlik baryeri keçməyincə ikinci turda 38,6 faiz səslə Salome Zurabişvili və 37,7 faiz səs toplayan Qriqol Vaşadze yenidən yarışıb. İlk turu 1 xaldan az qabaqlayan Zurabişvili ikinci turda fərqi artıraraq 59 faizlə prezident seçilib.

Gürcüstanda seçkilərin birinci turunda 46 faiz olan seçici fəallığı ikinci turda 56 faizə yüksəlib. 2019-cu il dekabrın 22-də Xorvatiyada keçirilmiş seçkilərdə keçmiş baş nazir Zoran Milanoviç 29,5 faiz, hazırkı prezident Kolinda Qrabar-Kitaroviç isə 26,65 faiz səs toplayaraq ikinci tura keçiblər. 2020-ci il yanvarın 5-də keçirilən ikinci turda seçicilərin səsvermədə iştirak nisbəti 51 faizdən 55 faizə yüksəlsə də, nəticələr dəyişməyib. İlk turu qabaqlayan Milanoviç ikinci turda 52 faiz səs toplayaraq Xorvatiyanın yeni prezidenti olub.



2022-ci ildə Kosta Rikada keçirilmiş prezident seçkilərində 40 faizlik baryeri sosial-demokrat Rodriqo Çaves və keçmiş prezident Xose Mariya Fiqeres keçə bilib. Birinci turda Figueres 27 faiz, Çaves isə 16 faiz səs toplayıb və ikinci turda yarışmaq şansı əldə edib. İkinci turda rəqibini geridə qoyan Çaves 52 faiz səs toplayıb və Kosta Rikanın yeni prezidenti olub.

2019-cu il aprelin 21-də Şimali Makedoniyada keçirilmiş seçkilərdə Stevo Pendarovski və Qordona Silyanovska-Davkova hər biri 44 faiz səs toplayıb və ikinci tura vəsiqə qazanıb. İlk turda rəqibindən 4 min çox səs toplayan Pendarovski ikinci turda fərqi genişləndirərək 53 faizlə prezident seçilməyi bacarıb. Birinci tur seçkilərdə 41 faiz olan fəallıq isə ikinci turda 46 faizə yüksəlib.

2019-cu il iyunun 12-də Litvada keçirilmiş seçkilərin birinci turu nəfəs kəsən rəqabətə şahidlik edib. Ümumilikdə 2,5 milyon seçicisi olan ölkədə ilk turda rəqibindən cəmi 5 min çox səs toplayan İnqrida Simonyte öndə, Gitanas Nauseda isə ikinci yerdə qalıb. İştirak nisbətinin 57 faizdən 53 faizə düşdüyü ikinci turda külək tamamilə Nauseda istiqamətində əsdi. Nauseda 66 faiz səslə Litvanın yeni prezidenti olub, Simonyte isə ikinci turda 3500 səs geriləyib və 33 faizdə qalıb. 2020-ci il noyabrın 1-də Moldovada keçirilən seçkilərdə Avropa İttifaqının tərəfdarı Maya Sandu 36 faiz, Rusiyayönlü İqor Dodon isə 32,6 faiz səs toplayıb. 50 faiz limiti aşılmadığı üçün ikinci tura gedilməli olub. Seçkilərdə iştirakın 45 faizdən 55 faizə yüksəldiyi ikinci turda Sandu 57,7 faiz səs toplayaraq rəqibi ilə fərqi genişləndirib və Moldovanın ilk qadın prezidenti olub.

2021-ci il aprelin 11-də Peruda keçirilən seçkilərdə 18,9 faiz səs toplayan Pedro Kastilyo və 13,4 faiz səs toplayan Keiko Fuximori ikinci tura vəsiqə qazanan adlar olub. İkinci tur seçkiləri isə ölkə tarixində ən qızğın yarışlardan biri kimi yadda qalıb. 17,5 milyondan çox seçicinin qatıldığı seçkilərdə rəqibindən cəmi 44 min səs çox olan Kastilyo 50,1 faizlə Perunun yeni prezidenti olub.

Birinci turda yüzdə 70 olan seçici fəallığı ikinci turda 74 faizə yüksəlib.

2020-ci il iyunun 29-də Polşada keçirilmiş seçkilərin birinci turunda hakim Hüquq və Ədalət Partiyasının namizədi, hazırkı prezident Anjey Duda 43,5 faiz, Varşava meri Rafal Trzaskovski isə 30 faiz səs toplayıb və ikinci tura vəsiqə qazanıb. İkinci turda gərgin rəqabət olsa da, 51 faiz səs toplayan Duda növbəti dəfə prezident seçilib.

Birinci turda 64 faiz olan seçici fəallığı ikinci turda 68 faizə yüksəlib.

2019-cu il noyabrın 10-da Rumıniyada keçirilmiş seçkilərin ilk turunda səslərin 37,8 faizini toplayan Klaus Yohannis və səslərin 22 faizinə çatan Vayorika Dancila ikinci turda adlarının yazılmasına nail olublar. Noyabrın 24-də keçirilən səsvermənin ikinci turunda Yohannis rəqibi ilə fərqi artıraraq 66 faiz səslə prezident seçilib.

İlk turda 51 faiz olan seçicilərin iştirak nisbəti ikinci turda 55 faizə yüksəlib.

2019-cu il martın 16-da Slovakiyada keçirilən seçkilərdə 40,5 faiz səs toplayan Zuzana Çaputova 18 faiz səs toplayan rəqibi Maros Şefçoviçlə ikinci tura keçib. Seçkilərdə iştirak nisbətinin 48 faizdən 41 faizə düşdüyü ikinci seçkidə də rəqibi ilə fərqi qorumağı bacaran Çaputova 58 faiz səslə prezident seçilib.

2022-ci il oktyabrın 23-də Sloveniyada keçirilən birinci tur seçkilərdə 33 faiz səs toplayan Anze Loqar və səslərin yüzdə 26,8 faizini əldə edən Natasa Musar ikinci turda yarışmaq imkanı qazanıblar. Noyabrın 13-də keçirilən ikinci tur seçkilər Musarın qələbəsi ilə nəticələnib. İlk turda uduzan namizədlərin əksəriyyətinin səsini toplamağı bacaran Musar 53 faiz səslə rəqibini məğlub edərək Sloveniyanın yeni prezidenti olub. 2019-cu ildə Ukraynada müharibədən əvvəlki son prezident seçkilərinin ilk turunda səslərin 30 faizini toplayan Vladimir Zelenski və 15 faiz səs toplayan o vaxtkı prezident Petro Poroşenko ikinci tura vəsiqə qazanıblar. İki həftə sonra keçirilən seçkilərin ikinci turunda Zelenski 73,2 faiz səs toplayaraq Ukraynanın yeni prezidenti olub.

2019-cu il oktyabrın 27-də Uruqvayda keçirilən ilk tur seçkilərdə səslərin 40 faizini toplayan Daniel Martinez və yüzdə 29 səs toplayan Luis Lakalle Pou ikinci tura keçən namizədlər olub. İkinci turda ölkə tarixinin ən baş-başa seçki yarışlarından biri reallaşıb. İlk turu geridə bağlayan Pou ikinci turda rəqibindən 40 min çox səs toplayıb və səslərin 50,7 faizini alaraq prezident seçilməyi bacarıb.

Seçkilərdə fəallıq isə hər iki turda 90 faiz olub. Göründüyü kimi, seçkinin nəticələri ikinci turda bəlli olan ölkələrin əksəriyyəti öz demokratiyası ilə tanınırlar. O ki qaldı daha adil nəticənin əldə olunmasına, bu seçkinin keçirildiyi ölkənin xalqından, o cümlədən Türkiyə vətəndaşlarından asılıdır. Sağlıq olsun, 28 maya sayılı günlər qalır, əminik ki, türk xalqı öz ədalətli qərarını verərək dostunu sevindirib, düşmənini məyus edəcək...

***✍ Vüsal Tağıbəyli***

# Laçının işğalına aparan yol

◂ əvvəli 3-cü səhifədə

Rəhim Qazıyevin tələbi bundan ibarətdir ki, o, Şuşa və Laçının lazımi qaydada müdafiəsini təşkil etmək üçün düşmən mövqelərinin “yer-hava” tipli raketlərlə vurulmasını planlaşdırmışdır. Odur ki, Qubadlı camaatının təhıükəsizliyini təmin etmək məqsədilə əhali üç günlük rayondan çıxarılmalıdır... Hüseyn Əsədov ona rədd cavabı verdi. Hərbçi isə ona bildirdi ki, Rəhim Qazıyev həmin əməliyyatın keçirilməsini sabah səhər tezdənə nəzərdə tutub. Buna görə də o, təcili Yevlağa qayıdıb naziri xəbərdar etməlidir ki, razılıq əldə olunmadı və nəzərdə tutulan əməliyyat keçirilməsin. Nəticədə bu xəbərin R.Qazıyevə çatdırılmasından ötrü həmin hərbçi Əsədovun ona ayırdığı avtomaşınla Yevlağa yola düşdü...

Hesab edirəm ki, Rəhim Qazıyevin Qubadlının boşaldılmasıyla bağlı icra başçısı Hüseyn Əsədova göndərdiyi sifariş Şuşa və Laçının müdafiəsinin təşkil edilməsi məqsədi ilə deyil, yalnız onun yeri gəldikdə: “Əgər o vaxtlar sözümə əməl olunsaydı, həmin rayonların müdafiəsini təşkil edə bilərdim”,- deyib özünə xalq qarşısında bəraət qazandırmaq istəyi idi. Mütəllibovu devirdi. Yaqub Məmmədovu isə Ali Sovetin sədri vəzifəsindən kənarlaşdırdılar... Mayın 16-da Rəhim Hüseynova zəng edib Laçındakı vəziyyətlə onu da tanış etdim və tədbir görməsini xahiş etdim... Həmin gün saat 13:30 radələrinə Laçın icra başçısının müavini Səlim Səlimov Laçından zəng edib düşmən qüvvələrinin Gorus və Şuşa istiqamətlərindən Laçına hücumlarını gücləndirdiklərini bildirdi. Yevlağa zəng edib Baş Qərargah rəisi Şahin Musayevlə danışdım. O, cavab verdi ki, Laçındakı durumdan xəbərdardır. 300 əsgərin, bir neçə tank, PDM və s. hərbi texnikanın Laçına qayıtması üçün tədbir görür...

Saat 14:30-da təkrarən Yevlağa zəng edib Şahin Musayevlə danışmaq istədikdə podpolkovnik rütbəli Cəfərov adlı bir zabit cavab verdi ki, cənab general nahar edir, 20 dəqiqə sonra yerində olacaq...

Saat 15:10-da Qubadlının Muradxanlı kəndindən Laçının icra başçısı Xanlar Məmmədov zəng edib Bakıdan heç bir kömək olmadığını, əksinə, hərbi qüvvələrin mayın 14-15-də Bakıdan verilən əmrə əsasən paytaxta qayıtdığını, müdafiəsiz vəziyyətdə qalan Laçına doğru düşmən qüvvələrinin irəlilədiyini, 25 mindən artıq



Qazıyev yaxşı bilirdi ki, Qubadlı camaatı heç zaman könüllü qaydada öz doğma yurd-yuvasını tərk etməyəcək...

***- Bəs o zaman Azərbaycan ordusunda doğrudanmı belə “yer-hava” tipli raketlər var idi?***

- Bəli, tam məsuliyyətlə deyirəm, 1992-ci ilin yazında Azərbaycan Silahlı Qüvvələrinin sərəncamında belə raketlər olmuşdu. 1992-ci ilin fevralında Kürdəmir rayon prokuroru Ramiz Cəfərov mənə məlumat verdi ki, rayon ərazisində yerləşən hərbi hissədə sovet ordusundan qalmış 32 ədəd “yer-hava” tipli raketin nəzarətsiz olduğunu Müdafiə nazirinin müavini Baba Nəzərliyə bildirmişdir. Lakin o, həmin raketlərin hərbi hissədən götürülməsinə dair heç bir tədbir görməmişdir. Bu məlumatdan sonra mən dərhal Baba Nəzərliyə telefonla müraciət edib o raketlərin hərbi hissədən götürülməsini tələb etdim. 3 gün sonra raketlər oradan götürüldü. Elə həmin vaxtdan da bu raketlər Rəhim Qazıyevin sərəncamında idi... Lakin nədənsə o, belə dağıdıcı raketlərdən düşmənə qarşı heç vaxt istifadə etmədi...

***- Daha sonra Qubadlıdan Laçına yollandınızmı?***

- Bəli. Mayın 13-də səhər tezdən maşınla Laçına yollandıq. Yol boyu Laçın camaatının yük avtomobilləri ilə rayonu tərk etməsinin şahidi olduq... Biz oraya çatanda Laçının mərkəzinə Ermənistanın Gorus rayonu istiqamətindən güclü və aramsız artilleriya zərbələri endirilirdi. Şuşada olduğu kimi, Laçında da briqada komandiri Elbrus Orucovu axtarıb tapa bilmədim...

Turşsu qəsəbəsinə getdiyini söylədilər... Lakin orada da tapılmadı. Mayın 13-ü axşam Qubadlıya qayıdıb icra başçısının kabinetindən baş nazir Feyruz Mustafayevə zəng vurdum və Laçının acınacaqlı vəziyyətdə olduğunu bildirdim... Ağdamın Abdal-Gülablı kəndində də vəziyyətin ağır olmasını bildirən baş nazir tez Ağdama qayıtmağımı tapşırdı. Gecə saat 12 radələrində Qubadlını tərk etdim...

***- Mayın 14-də sabiq prezident Ayaz Mütəllibovun yenidən hakimiyyətə qayıtması haqda sizin məlumatınız oldumu? Oldusa, Şuşa və Laçın ətrafındakı durum barədə ona məlumat verə bildinizmi?***

- Bəli, mayın 14-də Ağdamdakı qərargaha qayıdıb Feyruz Mustafayevlə danışmaq istədim, lakin onun telefonları cavab vermədi. Bir azdan Prezident Aparatı Mətbuat Xidmətindən zəng edərək cəbhədəki vəziyyətlə maraqlanan əməkdaş mənə məlumat verdi ki, Ayaz Mütəllibov yenidən vəzifəsinə qayıdıb. Zəng edib onunla danışdım. Ağdam və Laçın ətrafındakı ağır vəziyyəti ona bildirdim və dövlət başçısı kimi Laçının müdafiəsi ilə bağlı tədbir görməsini ondan xahiş etdim. Mütəllibov məsələ ilə bağlı Rəhim Qazıyevə müraciət etməyimi məsləhət gördü...

Mayın 15-16-17-də ardıcıl olaraq dəfələrlə müdafiə naziri Qazıyevlə əlaqə yaratmaq istəsəm də, onu heç yerdə tapa bilmədim... Bu arada o da məlum oldu ki, Mütəllibov bir günlük hakimiyyətə qayıtdıqda Nazirlər Kabinetinin sədri Feyruz Mustafayevin yerinə Rəhim Hüseynovu təyin edib...

Mayın 15-də Xalq Cəbhəsi silahlı qüvvələrin gücü hesabına Prezident Ayaz

> “ *AXC rəhbərlərindən heç kəs mənə zəng vurmadı. Belə anlayırdım ki, onları Laçının taleyi maraqlandırmır*

Laçın əhalisinin Laçın və Kəlbəcər rayonları arasında köməksiz vəziyyətdə qaldığını bildirdi... Yevlağa zəng edib təcili tədbir görülməsi üçün bu məlumatları Şahin Musayevə çatdırdım... O bildirdi ki, düşmən hücumunun qarşısını yalnız havadan almaq mümkündür, ona da imkan yoxdur... Bundan sonra baş nazir Rəhim Hüseynova da vəziyyət barədə məlumat çatdırdım. Mayın 17-də dəfələrlə Rəhim Hüseynovla, Şahin Musayevlə və Laçın icra başçısı Xanlar Məmmədovla telefon danışıqlarımız oldu...

***- Əlisab müəllim, Laçın işğal edilən günlərdə faktiki olaraq hakimiyyət başında olan AXC rəhbərləri Əbülfəz Elçibəy, İsa Qəmbər və digərləri heç sizinlə əlaqə yaradıb cəbhədəki vəziyyətlə maraqlandılarmı?***

- Xeyr, AXC rəhbərlərindən heç kəs mənə zəng vurmadı. Belə anlayırdım ki, onları Laçının taleyi maraqlandırmır. Belə ki, mayın 17-də axşam saat 19 radələrində mən növbəti dəfə baş nazir Rəhim Hüseynova zəng edib erməni ordusunun artıq Laçının mərkəzinə girməyə cəhd etdiyini söylədikdə o mənə bildirdi: “Laçının müdafiəsi ilə bağlı bütün günü “bəy”lərlə telefon danışıqları aparmışam. Lakin onlar Nazirlər Kabinetinə gəlməkdən imtina edirlər. Saat 21-ə iclas təyin etmişəm. İclasa AXC liderləri Əbülfəz Əliyevi, İsa Qəmbəri və özü də AXC fəallarından olan müdafiə naziri Rəhim Qazıyevi dəvət etmişəm, gözləyin”...

Baş nazirlə danışıqdan sonra Qubadlının Muradxanlı kəndinə zəng vurub Xanlar Məmmədovla danışdım. O bildirdi ki, Laçına heç bir köməklik göstərilmir. Laçının sonu yaxınlaşmaqdadır...

Həmin gün saat 21:00-da vəzifəsindən kənarlaşdırılmış Yaqub Məmmədovun evinə zəng etdim. Laçının vəziyyətini ona da dedim. Fikirləşdim ki, bəlkə bir köməklik göstərə bilər. Cavab verdi ki, mayın 15-dən onu vəzifəsindən kənarlaşdıran Xalq Cəbhəsi fəalları tərəfindən faktiki ev dustağı edilib və mənzilindən kənara çıxmağa icazə verilmir... Saat 23-də yenidən iki dəfə baş nazir Rəhim Hüseynovla danışdım. O bildirdi ki, axşam saat 21-də “bəy”lər iclasa gəlmədilər və Laçına köməklik göstərməkdən imtina etdilər...

Bu minvalla ermənilərin “Qarabağın qara qapısı” adlandırdığı Laçın da hakimiyyət davası burulğanında işğal edildi...

***✍ Sultan Laçın***

# İnsan alveri transmilli bəladır

**Bu həftə Milli Məclisdə insan alverinə qarşı mübarizəyə dair illik məruzə müzakirə olundu. Azərbaycanda insan alverçilərinə qarşı mübarizə, onların qurbanlarına çevrilmiş vətəndaşların hüquqlarının qorunması və s. məsələlərlə bağlı suallarımızı deputat Zahid Oruc cavablandırır:**

## Müsahib



**Zahid Oruc,**
Milli Məclisin deputatı

***- Milli Məclisdə "İnsan alverinə qarşı mübarizəyə dair illik məruzəni" necə dəyərləndirirsiniz?***

- Bir neçə gün öncə Ulu Öndərin anadan olmasının 100 illiyi xalqımız tərəfindən yüksək təntənə ilə qeyd edildi. Yaranma tarixi müstəqil dövlətçiliyimizlə bir vaxta düşən Azərbaycan daxili işlər orqanlarının keçdiyi inkişaf yolu, Heydər Əliyevin suveren hüquqmühafizə siyasətinin birbaşa nəticəsidir. Azərbaycan son onilliklər daxili təhlükəsiliyin və sabitliyin yüksək səviyyədə qorunduğu ölkələr sırasındadır. İnsan Alverinə qarşı mübarizəyə dair İllik Məruzə müstəqillik illərində ardıcıl inkişaf edən daxili işlər orqanlarının qanunvericilik və icra siyasətinin parlament səviyyəsində qiymətləndirilməsi deməkdir.

1992-ci ildə BMT tərəfindən 14 transmilli cinayət növünün - terrorizm, qanunsuz silah alveri, quldurluq və s. ilə yanaşı, onların sırasına insan alveri və insan orqanları ilə alver də daxil edildi. BMT-nin İnsan Hüquqları Komissiyasının 60-cı sessiyasında 2004/110 saylı qərar qəbul edildi və bu qərara əsasən, üç il müddətinə insan alveri, xüsusilə də qadın və uşaq alveri üzrə xüsusi məruzəçinin təyin edilməsi barədə qərar qəbul olundu.

Beləliklə, insan alveri üzrə məruzəçi həm beynəlxalq səviyyədə, həm də ölkəmizdə, yeganə və çox önəmli beynəlxalq insan hüquqları mexanizmidir. Bu mandat qlobal olmaqla yanaşı, yerli vətəndaş cəmiyyəti ilə geniş vəhdət təşkil edilir. Ona görə də bir neçə gün əvvəl Milli Məclisin iki komitəsində illik məlumatın hərtərəfli müzakirəsi 10-a qədər QHT təmsilçisinin iştirakı və millət vəkillərinin sənədə qiymət verməzdən əvvəl DİN yanında sığınacağı ziyarət etmələri, yüksək standartlara cavab verən şəraitlə tanışlığı müsbət məqamlar kimi dəyərləndirilə bilər.

Bildiyimiz kimi, insan alveri transmilli bəladır və ona qarşı mübarizə bir neçə səviyyədə - milli, Avropa və BMT səviyyəsində iştirakı zəruridir. BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi (UNODC) çərçivəsində Azərbaycan insan alverinə qarşı mübarizənin təmin edilməsinə öz töhfəsini verir. İnsan alveri çərçivəsində istismarın bir neçə forması var: cinsi istismar, məcburi əmək, məişət köləliyi, orqan alveri, məcburi cinayət və dilənçilik.

***- İnsan alveri ilə bağlı qlobal mənzərə nədir?***

- Beynəlxalq "Qlobal kölelik indeksi"nin (Global Slavery İndex) 189 ölkədə apardığı sorğunun 2021-ci il üçün nəticələrinə görə, bu gün 49,6 milyon insan müasir köləlik şəraitində yaşayır. Bu da Niderland və Polşanın birlikdə götürülən əhalisinə bərabər olub, 2017-ci illə müqayisədə 10 milyon nəfər çoxdur. Davamlı inkişaf məqsədləri proqramına görə bu, dünyada hər 150 nəfərdən biri deməkdir.

***- İnsan alveri kimi ictimai təhlükə törədən cinayətin qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində hansı işlər həyata keçirilir?***

- Həyata keçirilən kompleks tədbirlərin mühüm bir qismini profilaktik və maarifləndirmə tədbirləri təşkil edir. İnsan alveri, həm də mürəkkəb sosial hadisədir. İnsan istismarının xarakteri yoxsulluğun yayılması, əmək bazarında seqreqasiya, əhalinin çoxsaylı kontingentlərinin səmərəli məşğulluq, təhsil, sosial müdafiə və digər resurslara çıxışının məhdudlaşdırılması ilə sıx əlaqəlidir.

Təqdim edilən məlumatda bu sahədə dövlət siyasətinin beynəlxalq səviyyədə tanınan insan alverinin qarşısının alınması və ona qarşı mübarizə siyasətinin təşviqi üzrə 4 istiqamət üzrə fəaliyyət və tədbirləri özündə əks etdirir: bu fenomenin qarşısının alınması; qurbanlara yardım və müdafiə; cinayətkarların təqibi və bu fenomenin transmilli olduğunu nəzərə alaraq beynəlxalq əməkdaşlıq.

***- Bu sahədə reytinqlərdə yerimiz hansı pillədə dayanır?***

- Təqdirəlayiq hadisədir ki, insan alveri sahəsində qlobal indeks və reytinqlərdə Azərbaycan bu cinayətkarlıqla mübarizənin dəyərləndirilməsində ardıcıl olaraq irəliləyən indikatorlara malikdir. Məsələn, qlobal mütəşəkkil cinayətkarlıqla bağlı beynəlxalq indeksində (Global Organised Crime İndex) qonşu dövlətlər - İran və MDB-dən bir çox ölkə arzuolunmaz sıralarda yer alsa da, Azərbaycan orada yoxdur. Yaxud uşaq alveri ilə bağlı - "Child Trafficking by Country" 2023 son qlobal indeksdə də vəzyyət ürəkaçandır. BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) 2009-cu ildən başlayaraq, "İnsan Alverinə dair Qlobal Hesabat"- "Global Report on Trafficking in Persons"lar hazırlayır.

***- Əksər hallarda müdafiə olunan Ermənistan bu məsələdə necə dəyərləndirilir?***

- Ötən 2022-ci illə bağlı son Hesabatda Ermənistan bu sahədə görülən işlərlə bağlı səhifə demək olar ki, boş qalıb; məsələn, Ermənistan. İnsan alveri ilə bağlı fəaliyyətlər, istintaq və axtarış tədbirləri" bölümündə yazılır: "2017-2020-ci illər arasında Ermənistan hakimiyyəti tərəfindən insan alveri ilə bağlı araşdırma və ya təqiblər barədə heç bir məlumat verilməyib. 2017-2019-cu illər arasında insan alverinə görə heç bir məhkumluq olmayıb.

Qurbanlar: 2017-2020-ci illər arasında Ermənistan hakimiyyəti tərəfindən insan alveri qurbanları barədə heç bir məlumat verilməyib. Hesabatda mənbə kimi, Ermənistan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti-göstərilib. BMT-nin hesabatında əlifba sırası ilə sonra gələn Azərbaycanla bağlı səhifələrdə isə illər üzrə tam statistik-infoqrafik məlumatlar yer alıb. Azərbaycanla bağlı bütün hesabatlar yerləşdirilib.

BMT-nin sözügedən hesabatlarında daha bir məqam diqqəti cəlb edir. Belə ki, İnsan Alverinə dair Qlobal Hesabatda xüsusi olaraq vurğulanır ki, müharibə və münaqişə insan alverçilərinə çeşidli istismar imkanları yaradır. Hazırda gedən Ukraynadakı müharibə məcburi köçkünlər üçün insan alveri riskini artırıb. Münaqişələr nəticəsində yaranan qurbanların əksəriyyəti Afrika və Yaxın Şərq ölkələrindən gəlir və insan alverinə məruz qalır. Bu, o deməkdir ki, Azərbaycan Vətən müharibəsində Zəfər qazanmaqla dünyanın ən uzunmüddətli münaqişəsinə son qoymaqla, həm regionda və dünyada insan alveri ilə mübarizəyə çox böyük töhfələr verib.

> *Azərbaycan güc strukturları insan alveri sahəsində də öz işini ildən ilə təkmilləşdirməkdədir*

***- İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair" 2022-ci illə bağlı məlumatı barədə nələri söyləmək olar?***

- İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair" 2022-ci illə bağlı Məlumatı 8 bölmədən ibarətdir. Bölmələrdə müasir qlobal problemin - insan alveri ilə mübarizənin əsas istiqamətləri - " Qanunvericilik", "Profilaktika və maarifləndirmə, təlim və treninqlər", "Beynəlxalq əməkdaşlıq", "Məcburi əməyin qarşısının alınması sahəsində tədbirlər", "Cinayət təqibi və qurbanlarla iş", "Qarşıda duran vəzifələr", "İnsan alveri ilə mübarizənin nəticələrinə dair statistik göstəricilər" adlı ən mühüm fəaliyyətlərin nəticələri yer alıb.

Sahədə mövcud olan vəziyyətlə bağlı ətraflı və sistemli mənzərə təqdim edilib. Hesabatın son illərdə daha da genişləndirilən, keyfiyyət əsaslı təhlili və statistik əlavələrdən ibarət infoqrafikalarla müşayiət edilməsi hər kəsə bu sahə ilə bağlı tenedensiyları qiymətləndirməyə imkan verir, mötəbər məlumat bazası kimi çıxış edir.

Beynəlxalq dəyərləndirilmələrdə xüsusi diqqət yetirilən "Cinayət təqibi və qurbanlarla iş" bölməsində isə milli səlahiyyətli strukturlarımızın öz üzərinə düşən vəzifələri bütün əhatəyili ilə yerinə yetirməsini görmək olar. Xüsusi vurğulayaq ki, ötən il xüsusi İdarələrarası Komissiyasının yaradılması sahəsində mühüm qanunverici addımlar atıldı. Əsas ağırlıq Daxili İşlər Nazirliyinin üzərindədir. Nazir hörmətli Vilayət Eyvazonun onillər ərzində Milli Koordinator kimi həm daxili, həm də beynəlxalq təcrübəni yaxşı bilməsi mühüm hakimiyyət orqanları, o cümlədən parlamentlə və vətəndaş cəmiyyəti institutları ilə yüksəksəviyyəli əməkdaşlıqda mühüm rol oynayır.

Görülən işlərin nəticəsi olaraq ölkəmizdə insan alveri və məcburi əməyin qarşısının alınması sahəsində fəaliyyətin effektivliyi həm ABŞ Dövlət Departamentinin 2021-ci ildə yayımladığı illik hesabatda, həm də, Avropa Şurasının İnsan alverinə qarşı mübarizə üzrə Ekspertlər Qrupunun (QRETA) və digər beynəlxalq təşkilatların aidiyyəti sənədlərində xüsusi vurğulanmış və 1-ci qrup ölkələr siyahısında yer almaq imkanı əldə etmişdir.

Tövsiyəxarakterli məsələ yeni mübarizə formaları və mexanizmlərinin yaradılması ilə bağlıdır. Məsələn, dünya təcrübəsində rayon və yerli komitələrdən dəstək qrupları/ İşçi qrupları mübarizə aparmaq üçün hərəkətləri koordinasiya etməyin təsirli bir vasitəsidir.

Daha bir məsələ, məcburi əmək və uşaq əməyi istismarı ilə bağlı bu sahədə çalışan QHT-lərin passivliyi ilə bağlıdır. Qarşıdakı ildə koalisiyanın işinin yenidən qurulması, onlara maliyyə yardımının artırılması və fəaliyyət formatının yenilənməsi QHT-lərin fəallığa təkan verərdi. Eyni zamanda, beynəlxalq təcrübədə "qurbanların müdafiəsinin insan haqları çərçivəsində həlli", "qurban" anlayışından, "cinayət dəhşətlərni yaşayan və ona qarşı mübarizə aparan fəal şəxs" vəziyyətinə keçid baş verib. Yəni, "hər hansı qurbanın aşkar edilməsi, hüquqlarının müdafiəsi mərhələsindən onun özünün İnsan alverinə qarşı mübarizə sıralarında fəala çevrilməsi"- mübarizənin fefektivliyinin artırılmasında mühüm bir yenilikdir. Beləliklə, bu həyati yaşayanlar insan alverinə qarşı qəti mübarizləri çevrilirlər. Hər il ABŞ Dövlət Departamenti dünya üzrə bu cür 10 fəal aşkarlayır, onların mükafatlandırır və ölkələrin mövqeyini irəliyə çəkirlər. Qazaxıstan, Moldova və s.-dən belə fəallar təqdim olunub. Sual yaranır? Məgər Azərbaycanda belə nümunələr yoxdurmu, yaxud onları dünyaya təqdim etmək mümkün deyilmi? Hesab edirik ki, bu məsələdə yenə də Vətəndaş Cəmiyyətinin passivliyi özünü göstərir və bunun tezliklə aradan qaldırılacağına ümid edirik.

Yekun olaraq qeyd edək ki, vətəndaşlarımızın sabit və təhlükəsiz şəraitdə yaşamasının, cinayət əməllərindən qorunmasının təmin edilməsi sahəsində bütün əsas beynəlxalq hüquqi sənədlərə qoşulan, dünyada sabitliyin qorunması sahəsində ən öncül sırada duran Azərbaycan güc strukturları insan alveri sahəsində də öz işini ildən ilə təkmilləşdirməkdədir. Bu nəticələr Məlumatı müsbət və qənaətbəxş sənəd kimi dəyərləndirməyə imkan verir.

✍ Tahirə



## Bu il kənd təsərrüfatı istehsalı 4%-ə yaxın artıb

**2023-cü ilin yanvar-aprel ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 1961,5 milyon manat təşkil edib ki, onun da 1796,2 milyon manatı heyvandarlıq, 165,3 milyon manatı bitkiçilik məhsullarının payına düşür.**

Hafta.az Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 3,5%, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,5%, bitkiçilik məhsulları üzrə 3,2% artıb.


## "Nar" 5G sürətini Sumqayıta gətirdi!

®




**"Nar" ultra sürətli 5G texnologiyasını Sumqayıt şəhərində test rejimində təqdim edir. Bununla da, "Nar" 5G texnologiyasını paytaxtdan kənara gətirən ilk mobil operator olub. Abunəçilər 5G texnologiyasını dəstəkləyən şəxsi mobil telefonları ilə Sumqayıt şəhəri, 2-ci mikrorayon, Sülh küçəsi 34 ünvanında yerləşən "Nar" mağazasında şəbəkəyə qoşula və ya mağazada şəbəkəyə qoşulmuş cihazlardan istifadə edərək 5G sürətini sınaqdan keçirə bilərlər.**

İlk dəfə 5G şəbəkəsinə qoşulan "Nar" abunəçiləri *775#YES şifrəsini yığmaqla 10GB həcmində pulsuz 5G internet paketi əldə edə bilərlər ki, bu da onlara gün ərzində həmin ərazidə 5G sürətini sınaqdan keçirməyə imkan verəcək. "Abunəçilərimiz üçün mümkün ən yaxşı rəqəmsal təcrübəni təmin etmək üçün ilk dəfə olaraq paytaxtdan kənarda-Sumqayıtda 5G texnologiyasını təqdim etməkdən qürur duyuruq. Əminik ki, bu yenilik müştərilərimizə yeni rəqəmsal imkanları araşdırmaq üçün əla fürsət yaradacaq", - deyə "Nar"ın Baş İcraçı direktoru Qunnar Panke bildirib.

Qeyd edək ki, hal-hazırda keyfiyyətli və kəsintisiz "Nar" şəbəkəsi ölkə ərazisinin 98%-ni, əhalinin isə 99%-ni əhatə edir. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.




**■ Rusiya və İran Rəşt-Astara dəmir yolunun tikintisinə dair birgə saziş imzalayıb. Rusiya və İran Prezidentləri Vladimir Putin və İbrahim Rəisi tədbirdə videobağlantı vasitəsilə iştirak ediblər.**

"Rusiya tez bir zamanda Rusiya, İran və Azərbaycan arasında dəmir yolu infrastrukturunun inkişafı və "Şimal-Cənub" marşrutunda yükdaşımaları üzrə əməkdaşlığa dair sazişin hazırlanmasının başa çatacağına ümid edir", - Vladimir Putin deyib. Onun sözlərinə görə, üç ölkənin gələcəkdə uğurlu koordinasiyası üçün zəruri hüquqi baza yaradılacaq. Putinin sözlərinə görə, sözügedən sazişin imzalanması bütün dünyanın nəqliyyat infrastrukturu üçün böyük hadisədir.



**■ "Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) missiyasının ölkədə yerləşdirilməsindən fayda görər və daha sabit vəziyyət əldə edərdi".**

Bunu Rusiyanın XİN rəhbəri Sergey Lavrov "Tsarqrad" telekanalına müsahibəsində deyib. "Ötən ilin payızında təşkilatın İrəvanda keçirilən sammitinə qədər erməni müttəfiqlərimizin müraciətinə uyğun olaraq KTMT-nin müşahidə missiyasının Ermənistan ərazisində yerləşdirilməsinə dair sənəd hazırlanmışdı. Sənəd XİN rəhbərləri səviyyəsində tam olaraq razılaşdırılmışdı. Lakin sözügedən sammit zamanı son anda erməni dostlarımız sənədin qəbulunu təxirə salmağı istədilər. Sənəd hələ də kağız üzərində qalır", - deyə Lavrov qeyd edib.



**■ Şabran rayonunun Qorğan kəndində təsərrüfatların birində baş verən hadisə Qida Təhlükəsizliyi Agentliyi tərəfindən ciddi nəzarətə götürülüb.**

Bu barədə AQTA-dan bildirilib. Qeyd edilib ki, hadisənin səbəbləri ilə bağlı Agentliyin mütəxəssisləri ilə digər aidiyyəti qurumların əməkdaşları tərəfindən araşdırmalara başlanılıb. Araşdırmaların nəticələri ilə bağlı əlavə məlumat veriləcək. Xatırladaq ki, Şabran rayonunda 20 nəfər quduzluq xəstəliyi şübhəsi ilə nəzarətə götürülüb. Rayonun Qorqan kəndində bir müddət öncə kənd sakininin təsərrüfatına yırtıcı heyvanlar hücum edib. Çaqqallar təsərrüfat sahibinə məxsus xırdabuynuzlu heyvanlara xəsarət yetirib. Təsərrüfat sahibi həmin heyvanların ətini fermadakı itlərə verib.



**■ Ermənistanda 1 ton kokain müsadirə olunub. Bu barədə ölkənin Milli Təhlükəsizlik Xidməti (MTX) məlumat yayıb.**

Qeyd olunub ki, müsadirə olunan narkotik vasitənin ümumi dəyəri təxminən 250 milyon avro təşkil edir. Məlumata əsasən müsadirə olunan kokain ölkəyə Ekvadordan meyvə idxal edən şirkət tərəfindən gətirilib. Onların böyük hissəsi İtaliya və Gürcüstandan tranzitlə Ermənistana gəlib.

Bundan öncə İtaliya KİV-ləri yerli limanlardan birində 78 tonluq banan yükündə gizlədilmiş 2.7 ton kokainin müsadirə olunması barədə məlumat vermişdilər ki, bu da yük qaimələrinə əsasən Gürcüstan vasitəsilə Ekvadordan Ermənistana göndərilib. Həmin partiyanın ümumi dəyəri 800 milyon avro olaraq qiymətləndirilib.



**■ Bütün dünya Azərbaycanın Ermənistanla olan münasibətləri normallaşdırma təşəbbüsünü görür və alqışlayır. Bu barədə Trend-ə Misir Xarici İşlər Şurasının sədri və Misirin keçmiş xarici işlər naziri Mohamed Abd El-Hay Al-Orabi deyib.**

O qeyd edib ki, Azərbaycan-Ermənistan arasında yaranmış münaqişə ilk vaxtlarından bəri izlənilir. "Azərbaycan torpaqlarını azad edərək münaqişəyə son qoydu. Biz inanırıq və bilirik ki, Azərbaycan hazırda Ermənistanla münasibətləri diplomatik yollarla normallaşdırır. Düşünürəm ki, bütün dünya Azərbaycanın bu təşəbbüsünü alıqşlayır",- deyə o bildirib. Ötən günlərdə Brüsseldə keçirilən üçtərəfli görüşdən bəhs edən Orabi qeyd edib ki, bəzən konfliktlərdə üçüncü -vasitəçi tərəfin iştirak etməsinə ehtiyac duyulur.



**■ Azərbaycanda inşa edilən ilk ödənişli yol olan Bakı-Quba-Rusiya sərhəddi avtomobil yolunun tikintisi yekunlaşmaq üzrədir.**

Bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli deyib. O bildirib ki, hazırda yolda son tamamlanma işləri gedir: "Bakı-Quba-Rusiya sərhəddi avtomobil yolu 5 hissə üzrə inşa olunur. İlk hissə-0-dan 30-cu kilometrə qədər olan hissə 2020-ci ildə tikilib yekunlaşdırılıb. İkinci hissə-30-55-ci kilometrlik hissəsində tikinti işləri yekunlaşır, son tamamlanma işləri görülür. Yaxın vaxtlarda həmin hissədə tikinti tam yekunlaşdırılacaq. 3-cü və 4-cü hissə üzrə torpaq və asfaltlanma işləri davam etdirilir.

# Kişilərin ən çox qorxduğu xəstəlik

**_Son illər dünyada prostat vəzi xərçəngindən əziyyət çəkənlərin sayı artıb. Ümumdünya Səhiyyə Təşkilatının statistikasına görə, bədxassəli yenitörəmələr arasında prostat vəzi xərçəngi (PCa) dünyanın 46 ölkəsində yayılma nisbətinə görə ikinci, kişilər arasında ölümə görə isə beşinci yeri tutur. Maraqlıdır ki, bu xəstəlik əksər hallarda 50 yaşdan kiçik kişilərdə diaqnoz olunur. Eyni zamanda, onların bəziləri metastatik prosesin inkişaf etmiş mərhələsindədir._**



## Tibb

■ **Mövzu ilə bağlı bizimlə söhbətləşən tibb elmləri namizədi, onkouroloq Teymur Musayev bildirib ki, prostat vəzin xərçəngi prostat vəzinin hüceyrələrindən inkişaf edən bədxassəli bir şişdir:** "Prostat vəzin bədxassəli şişləri inkişafı nisbətən yavaş olur və illər ərzində kiçik ölçüdə qala bilər, və kliniki əhəmiyyəti olmadan inkişaf edə bilər. Amma şübhəsiz ki bu şişlər çox təhlükəlidir və digər xərçəng növləri kimi metastazlar əmələ gətirə bilər. Prostat xərçəngi kişilərdə ən çox rast qələn bədxassəli şişlərdəndir. Təəssüf ki, son onilliklərdə bu şiş daha çox yayılmaqdadır və artmaqdadır. Otuz beş yaşdan sonra 10 min nəfər kişidən 1-də prostat vəzi xərçəngi baş verə bilər. Yaşla xəstələnmə riski yüz dəfələrlə artır. Altmış yaşdan yuxarı kişilər arasında hər yüz nəfərdən biri artıq xəstədir. Yetkin yaşda, 75 yaşdan sonra səkkiz kişidən birində prostat xərçəngi aşkar edilir. Bu səbəbdən 50 yaşdan yuxarı kişilərin sağlamlığına xüsusi diqqət yetirmələri vacibdir. Prostat xərçəngi ilə xəstələnmə coğrafi bölgədən asılı olaraq dəyişir. Avstraliya , Yeni Zelandiya, Şimali Amerika, Qərbi və Şərqi Avropada ən yüksək nisbətlərdədir. Bu, əsasən yaşlı bir populyasiya ilə əlaqədardır. Şərqdə, Cənubi və Orta Asiyada prostat xərçəngi tezliyi daha azdır, lakin son zamanlarda bu regionlardada artım qeyd olunur. Azərbaycana gəlincə isə deməzdim ki, bu xəstəlik sürətlə yayılır. Ölkəmizdə son bir neçə ildə icbari tibbi sığortanın tətbiq edilməsi, səhiyyənin yavaş-yavaş əlçatan olması, artıq müayinə imkanları regionboyu olduğu üçün və vaxtında diaqnoz qoyulması xəstəliyin statistikasını artırır. Əslində, mən deyərdim ki, statistika artmır, xəstəlik hər zaman olub, sadəcə, təyin olunanların sayı artır. Son 30-40 ildə xərçənglə bağlı ultrasəs müayinəsi, MRT, kompüter tomoqrafiyası və digər müayinələr istifadə olunur. Bunlar olmayanda biz xərçəng hüceyrəsinin sayını az görürdük. O zaman



**Teymur Musayev,**
tibb elmləri namizədi,
onkouroloq

xəstəliyi gecikmiş mərhələdə bilirdik. Hazırda cavan bir adamın da şikayəti varsa, müayinə ilə diaqnoz qoyulur. Xəstəliyin cavanlaşması əvəzinə, insanların tibbin fərqində olmasıdır desəm, yanılmaram".

> *Prostat xərçəngi kişilərdə ən çox rast qələn bədxassəli şişlərdəndir. Təəssüf ki, son onilliklərdə bu şiş daha çox yayılmaqdadır və artmaqdadır*

Prostat vəzi xərçənginin əlamətlərinə gəlincə, mütəxəssis qeyd edib ki, bu xəstəklik erkən mərhələdə özünü gizli aparır: "Təəssüf ki, erkən mərhələlərdə şiş özünü gizli aparır və heç bir simptom yaratmır. Yalnız qanda prostat spesifik antigen (PSA) səviyyəsinin artması biruzə verə bilər. Bir qayda olaraq, prostat vəzi xərçəngi olan xəstələrdə prostat adenoması ilə əlaqədar olan şikayətlər olur.

Məsələn, sidik təziqinin azalması, sidik ifrazının çətinləşməsi, sidik ifrazından sonra qalıq sidiyin hissi, tez-tez sidiyə getmə, sidik qaçırmaları və s.". Prostat vəzi xərçənginin müalicə üsullarına da aydınlıq gətirən həkim bildirib ki, prostat vəzi xərçənginin uğurlu müalicəsi xəstəliyin vaxtında, erkən mərhələdə aşkarlanmasından asılıdır: "Bu gün şişlərin bədləşmə və yerli yayılma dərəcəsindən asılı olmayaraq, PSA səviyyəsinin yüksək olmasına baxmıyaraq (T2-T3) cərrahi müalicə (radikal prostatektomiya) ən effektiv müalicə üsuludur. Bu əməliyyatlar həm açıq, həm laparoskopik, həmi də robotik üsullarla icra olunur. Prostat vəzi xərçənginin yayılmış formalarında hormonal müalicədən, kimyaterapiyadan, tarqet müalicədən və ən müasir müalicə üsulu olan radionukleid terapiyadan istifadə olunur. Bütün bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, hər bir kişi 45-50 yaşdan sonra ildə 1 dəfə qanda PSA səviyyəsini yoxlatmalı və sidik ifrazı ilə bağlı şikayətləri olduğu halda mütləq şəkildə uroloqa müraciət etməlidilər". Müalicədən sonra hansı müşahidə tələb olunduğuna gəlincə, T. Musayev qeyd edib ki, müayinənin vacib komponentlərindən biri PSA analizidir: "Təəssüf ki, radikal müalicədən sonra da şişin yenidən əmələ gəlməsi (residiv) baş verə bilər. Buna görə də, məsələn, həkimlər prostat xərçənginə tutulmuş xəstələrə vaxtaşırı müayinələrdən keçmələrini tövsiyə edirlər. Müayinənin vacib komponentlərindən biri PSA analizidir. Həmçinin, müşahidəyə ümumi baxış, qan və sidik analizləri, ultrasəs və ya kompüter tomoqrafiyası müayinələri daxil edilə bilər".

✍ **_Sevinc_**

## Cəmiyyət



# Siqaretə, içkiyə xərclədiyimiz pullar

**_2023-cü ilin ilk 4 ayında Azərbaycanda pərakəndə ticarət şəbəkələrində istehlakçılara 815.7 milyon manatlıq içki və tütün məmulatları satılıb. Dövlət Statistika Komitəsinin hesabatına əsasən, 2023-cü ilin yanvar-aprel aylarında alıcılar pərakəndə ticarət şəbəkələrində ərzaq məhsullarına 8 milyard 643 milyon manat, avtomobil benzini və dizel yanacağına 927.1 milyon manat, əczaçılıq məhsulları və tibbi ləvazimatlara isə 399.5 milyon manat vəsait xərcləyib._**

Qeyd edək ki, hesablamalara görə hazırda dünya əhalisinin təkcə 38 faizi spirtli içki qəbul edir. Nəticədə içənlərin payına 17 litr xalis spirt düşür. Son statistikaya görə, Avropa ölkələrindən Bosniya və Herseqovina yüzdə 8,7 ilə ev təsərrüfatlarının istehlak xərclərində spirtli içkilər, siqaret və tütünün ən yüksək payına sahib ölkədir. Ondan sonra 8,6 faizlə Serbiya və 8,4 faizlə Çexiya gəlir. Estoniya və Macarıstanda bu nisbət 8 faizdən yuxarıdır. Türkiyə bu siyahıda 37 Avropa ölkəsi arasında 32-ci yerdədir. Hollandiya siyahıda 3,5, Almaniya 3,5, Avstriya 3,6, Danimarka 3,6 və İsveçdə 3,7 faizlə qərarlaşıb. Ən aşağı göstərici 3 faizlə Portuqaliya və 3,2 faizlə İngiltərədir.

Yeri gəlmişkən, son illər azərbaycanlılar arasında da spirtli içki qəbul edənlərin və siqaret çəkənlərin sayı sürətlə artır. Bunu ölkə əhalisinin içki və tütün məmulatlarına xərclədikləri vəsaitlərin həcminin ilbəil artması da sübut edir. Tədqiqatlara görə, Azərbaycanda 15-19 yaşlı əhalinin 0,1 faizi, 20-44 yaşlı əhalinin 13,4 faizi, 45-64 yaşlı əhalinin 21,7 faizi siqaret çəkir. Siqaret çəkənlərin 14 faizinin yaşı 65-dən çoxdur. Əhalinin 5,3 faizi gündə 20 ədəddən çox siqaret çəkir. Araşdırmalara əsasən, ölkədəki kişilərin 31,9 faizi siqaret çəkir.

Ümumilikdə ölkədə 15-19 yaşlı kişilərin 0,2 faizi, 20-44 yaşlı kişilərin 26,5 faizi siqaret çəkir. Siqaret çəkənlərin böyük hissəsini 45-64 yaşlı kişilər təşkil edir. Onların 47,8 faizi siqaret çəkir. Siqaret çəkənlər arasında yaşı 65-dən çox olanların faizi isə 32,3 olub. Bəs, görəsən, azərbaycanlılar niyə çox içir və çəkir? Bunun səbəbi nədir? Əslində tütün və spirtli içkilərə xərclənən vəsait maksimum nə qədər olmalıdır?

■ **Mövzu ilə bağlı iqtisadçı ekspert Əyyub Kərimli bizimlə söhbətində xatırladıb ki, bu ilin ilk 4 ayında Azərbaycanda pərakəndə**



**Əyyub Kərimli,**
iqtisadçı ekspert

**ticarət şəbəkələrində istehlakçılara 815.7 milyon manatlıq içki və tütün məmulatları satılıb:** "Bu digər ölkələrlə müqayisədə böyük bir rəqəmdir. Sözsüz ki, bu həm də ölkədən çıxan valyutadır. Hesab edirəm ki, bunun həm sosial, həm iqtisadi səbəbləri var. Iqtisadi səbəblərdən biri kimi qeyd etmək istəyirəm ki, bizdə tütün məmulatları və alkoqollu içkilər digər ölkələrlə müqayisədə daha ucuz satılır. Hazırda Azərbaycanda hər insana düşən alkoqol norması digər ölkələrdən 2 dəfə çoxdur.

Bu təbii ki, arzuolunan hal deyil. Hesab edirəm ki, insanlarımızın alkoqola meylli olmasının 2 səbəbi var. Bunlardan biri bəzi hallarda süfrələrin daha təmtəraqlı olması ilə bağlıdır. Digər bir səbəb isə insanların sağlam həyat tərzinə üstünlük verməməsi ilə bağlıdır. Yəni, insanlarımız qeyri-sağlam həyat tərzinə üstünlük verdiklərindən alkoqola və tütün məmulatlarına meyllənirlər. Bu da , ürəkaçan hal deyil". Ekspert vurğulayıb ki, bu istiqamətdə əhali arasında maarifləndirmə işinin aparılması vacibdir: "Bilirsiniz ki, aksiz dərəcələrinin artırılması ilə bağlı Dövlət Proqramı mövcuddur. Hesab edirəm ki, bu istiqamətdə qiymətlərin bahalaşması davam etdirilməlidir. Eyni zamanda, insanlara xüsusilə sağlam həyat tərzinin təşviq edilməsi daha məqsədəuyğun olardı. Çünki biz müşahidə edirik ki, həm alkoqol, həm tütün istifadəçiləri arasında gəncləşmə mövcuddur. Digər tərəfdən, qadınlar arasında da bu kimi zərərli vərdişlərə meyllənənlərin sayı artıb. Bu baxımdan təbliğat, təşviqat işləri daha da möhkəmləndirilməli, eyni zamanda, mövcud vəziyyətlə iqtisadi tərəfdən də mübarizə aparılmalıdır".

■ **Məsələyə münasibət bildirən sosioloq Əhməd Qəşəmoğlu isə hesab edir ki, hazırda cəmiyyətdə mənəvi dəyərlərin aşınması müşahidə olunduğundan bu, insanların zərərli vərdişlərə meyl etməsinə gətirib çıxarıb:** "Bu gün müəyyən həyat tərzinin təbliğ olunması, insanlarda bir qədər sərbəst həyat tərzinə meylliliyin artması, mənəvi dəyələrlə bağlı aşınmalar xüsusən də spirtli içki içənlərin sayının artmasına səbəb olur. İçki içənlərin, siqaret çə-



**Əhməd Qəşəmoğlu,**
sosioloq

> *Hazırda Azərbaycanda hər insana düşən alkoqol norması digər ölkələrdən 2 dəfə çoxdur*

> *Hər halda içkidən, siqaretdən çox istifadə edilməni ancaq iqtisadi vəziyyətlə bağlamaq olmaz*

kənlərin sayının çoxalması faktı var və bunu təyin etmək çətin deyil. Çünki dövriyyədə nə qədər içkinin və siqaretin satışda olmasını araşdırıb müəyyən etmək mümkündür. Hər halda içkidən, siqaretdən çox istifadə edilməni ancaq iqtisadi vəziyyətlə bağlamaq olmaz. Çünki bir çox ölkədə bundan da pis iqtisadi vəziyyət var, lakin bu qədər içki aludəçisi, siqaret çəkən olmur.

Azərbaycanın özündə bir neçə on il bundan əvvəl iqtisadi vəziyyət bundan da qat-qat pis olub. Amma bu o demək deyil ki, o vaxt əhali içkiyə, siqaretə bu qədər meylli olub. Müəyyən həyat tərzinin təbliğ olunması, insanlarda bir qədər sərbəst həyat tərzinə meylliyin artması, mənəvi dəyələrlə bağlı aşınmalar bütün bunlara gətirib çıxarır. Digər tərəfdən bu məsələyə psixoloji vəziyyət, ölkədə olan iqtisadi çətinlik də təsir edə bilər. Bunlar da danılmaz bir faktdır. Amma ümumilikdə bu məsələyə birtərəfli yanaşılmasının tərəfdarı deyiləm. Belə bir statistikanın olması yaxşı hal deyil. Konkret olaraq bununla bağlı aidiyyəti qurumlar tərəfindən tədbirlər görülməlidir".

✍ **_Sevinc_**

# Havanın kəskin dəyişməsi astma xəstələrində narahatlıq yaradır

**Havanın kəskin dəyişməsi sağlam insanlara neqativ təsir göstərmir. Bunu Kliniki Tibbi Mərkəzin həkim-terapevti Könül Bənənyarskaya deyib. Həkimin sözlərinə görə, lakin müəyyən qrup insanlar var ki, onlarda narahatlıqlar yarada bilir:**



"Müəyyən qrup dedikdə buraya uşaqlar, hamilə qadınlar, yaşlı və xroniki xəstəliyi olan insanlar aiddir. Havanın soyuqdan istiyə keçməsi zamanı insanlar birdən-birə yaz geyiminə keçir, hava qəfil soyuduqda isə onlar isti geyimdən istifadə etmirlər. Bu da onların sağlamlığına mənfi təsir göstərir. Öskürək, boğaz qıcıqlanması, nəfəsalmanın çətinləşməsi kimi hallar ortaya çıxır. Havaların dəyişkən keçməsinə adekvat olaraq bu cür insanların geyimlərinə və hava şəraitinə uyğun davranışlarına diqqət yetirmələri məsləhət görülür".

> *Hava dəyişməsi zamanı insanlarda virus infeksiyaları və soyuqdəymə xəstəliklərinin də artması özünü göstərə bilir*

Həkim bildirir ki, ürək-damar sistemi, bronxial astma xəstəliyindən əziyyət çəkən insanlar da havanın kəskin dəyişməsi zamanı özlərini mütləq qorumalıdırlar: "Çünki insanların bir çoxu oturaq həyat tərzi keçirir, uzun müddət kompüter qarşısında olur, bu da ürək-qan damar sisteminə mənfi təsir göstərir. Havanın qəfil dəyişməsi bəzi insanlarda stress yaradır. Bu stress ürək əzələsində olan qan dövranının pozulmasına gətirib çıxarır. Hava dəyişməsi zamanı insanlarda virus infeksiyaları və soyuqdəymə xəstəliklərinin də artması özünü göstərə bilir. Bronxial astma xəstəliyi, allergiyası olan insanlarda hava dəyişkənlikləri bir sıra narahatlıqlara səbəb olur. Məsələn, allergik katarakta, allergik rinit kimi xəstəliklər baş qaldırır. Bu cür hava şəraiti emosional insanlara da pis təsir edir, onlarda depressiya hallarının əmələ gəlməsi özünü göstərir. Belə hallarda emosional vəziyyəti stabil saxlamaq məsləhətdir". Könül Bənənyarskaya belə hava şəraitində insanların geyimlərinə xüsusi diqqət yetirməli olduqlarını məsləhət görür: "Bir həkim kimi məsləhətimiz budur ki, dəyişkən hava şəraitində insanlar ilk növbədə öz geyimlərinə, qida rasionlarına diqqət etsinlər. Həmçinin çox tərləmədən qorunmalıdırlar. Bu daha çox uşaqlara aiddir, çünki mövsümi hava dəyişkənlikləri ilə əlaqədar uşaqlarda qrip, soyuqdəymə infeksiyaları artır".

✍ **_Rəna_**

# Nikahlar azalır, boşanmalar artır



***Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin birinci rübündə 11870 nikah və 5118 boşanma halları qeydə alınıb. Dövlət Statistika Komitəsindən verilən xəbərə görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 5,9-dan 4,7- yə düşüb, boşanmaların sayı isə 1,5-dən 2,0-a qədər artıb. Bu statistika Azərbaycanda ailə institutunun getdikcə dəyişdiyini, zəifləməsini göstərir. Hər bir cəmiyyətin əsas dayağı isə sağlam ailədir.***



## Problem

“

*Həyat insanın təkbaşına qərar verə biləcəyi məfhum deyil. Evlilikdə bir nəfər yox, indi iki nəfər var. İnsan iki gözlə deyil, dörd gözlə görəcək*

Ailədəki parçalanma cəmiyyətə də sirayət edir, illərlə qorunub saxlanılan, sağlam təməllər üzərində qurmağa çalışdığımız ictimai sütunu zədələyir. Bu səbəbdən evlilik, ailə qurmaqla bağlı məsələlər daim diqqət mərkəzindədir. Biz də sağlam evliliyin təməlini təşkil edən nüansları araşdırdıq.

Evlilikdə tərəflərin hər zaman qarşı tərəfin xüsusiyyətlərinə və gözləntilərinə diqqət yetirdiyini qeyd edən Psixiatr Prof. Dr. Nevzat Tarhan bildirib ki, insan qarşı tərəfdən gözləntiləri ilə yanaşı, öz vəzifə və məsuliyyətlərinin də fərqində olmalıdır.

İnsanın özünə mütləq “Necə olmalıyam?” sualını verməsi lazım olduğunu qeyd edən Tarhan, evlilikdə üç mühüm addımın olduğunu vurğulayır. Evlilikdə birinci addımın özünü tanımaq, ikinci addımın qarşı tərəfi tanımaq, üçüncü addımın isə evlilik institutunu, yəni sistemi tanımaqdır.

■ **Evlilik qabiliyyəti ilə evlilik yetkinliyinin eyni şey olmadığını ifadə edən Prof. Dr. Nevzat Tarhan, “Cütlüklərin evlilik yaşının kifayət qədər olması və hər iki tərəfin bir-birini istəməsi evlilikdə yetərlidir.** Evlilik yetkinliyi isə evlənəcək insanların yenidən ailə qurması deməkdir. Başqa sözlə, iki nəfər sosial vahidi yenidən quracaq. Bu inşa fəaliyyəti olduğu üçün orada müəyyən yetkinlik tələb olunur. Bacarıqdan başqa, səriştə tələb olunur”, - deyir. Evlilik yetkinliyi olan insanların problemlərin öhdəsindən gələ bildiyini qeyd edən Prof. Dr. Nevzat Tarhan deyir: “Evlilikdə üç dövr var. Birincisi romantika dövrüdür. Bu dövr tərəflərin bir-birinin eyibini görmədiyi bal ayına bənzər bir dövrdür. Romantika dövrü adətən bir neçə aydan iki ilə qədər davam edir. Bundan sonra həyatın reallıqları onun qarşısına çıxanda hakimiyyət qarşıdurmaları, şəxsiyyət münaqişələri başlayır. Bu dövrdə tərəflər ağıllı bir həll yolu tapsalar, yetkinlik dövrünə, yəni bağlılıq dövrünə keçirlər. Sonra evlilik etibara çevrilir. Sığınacaq olur”.



**Nevzat Tarhan,**
professor

Evliliyin sığınacaq halına gəlməsi üçün hər iki insandan zəhmət və vaxt tələb edir. O, qarşısına çıxan maneələri dəf etməlidir. Bütün bunları edə bilmək üçün insanlar planlı şəkildə hərəkət etməlidirlər.

Evliliklərdə fırtınalı dövrlərin ola biləcəyini qeyd edən ekspert bildirir ki, evlilik limandan çıxıb təyinat yerinə gedən gəmi kimidir. Yolda tufanlar, müxtəlif çətinliklər olacaq. İnsan bu çətinliklərin öhdəsindən gəlməyi bilməlidir. Əgər bunu öyrənib hazır olsa, asanlıqla öhdəsindən gələr, əks halda problem böyüyür: ”Bu, xəstəliklərə qarşı tədbir görmək kimidir. İnsan öz gigiyenasına fikir verirsə, immun sistemini güclü saxlayırsa, mikrobla qarşılaşanda orqanizmi müqavimət göstərir, xəstələnmir. Kiçik bir qısqanclıq və ya böhran vəziyyətində tərəflər sağlam şəkildə öhdəsindən gəlməyi və həll yollarını tapmağı bilsələr, problem böyümədən öz həllini tapacaq və beləliklə, iki nəfər həyatı öyrənməyə çalışacaq”. Evlənmək üçün yetkinlik yaşına çatmayan şəxsin kiçik bir kobudluqla gəmini tərk etməyə çalışacağını qeyd edən Tarhan, evlilikdə hər şeyin yaxşı olacağı gözləntisinin yanlış olduğunu, zamanla problemlərin olacağının bilinməsi lazım olduğu qənaətindədir. Evliliyə verilən ilk mənanın çox əhəmiyyətli olduğunu qeyd edən Nevzat Tarhan bildirib ki, qarşı tərəfdən gözləntilərlə yanaşı, öz vəzifə və məsuliyyətlərinin də fərqində olmaq lazımdır: ”Nə etməli olduğunuza baxmadan qarşı tərəfin nə etməli və necə olmalı olduğuna baxsanız, evlilikdə ilk xəyal qırıqlığı qısa müddətdə yaşanacaq. Qeyri-real gözləntilər, yəni yanlış gözləntilər böhranın səbəbidir. Evlilikdə də oxşar gözləntilər var. Evlilikdə də həyat yoldaşı və həyatla bağlı gözləntilər var. Həyat insanın xəyal etdiyi və yaşamaq istədiyi deyil, qarşılaşdığıdır. Həyat insanların həmişə planlaşdırdıqları kimi gedən bir anlayış deyil. Həyat insanın təkbaşına qərar verə biləcəyi məfhum deyil. Evlilikdə bir nəfər yox, indi iki nəfər var. İnsan iki gözlə deyil, dörd gözlə görəcək. O, iki qulağı ilə deyil, dörd qulağı ilə eşidəcəkdir. Belə harmoniya yaratmaq lazımdır. Evlilikdə cütlüklər mən olaraq qalmaqla biz ola biləcəklərini təmin etməlidirlər”.

Evlilikdə cütlər arasında tarazlığın vacibliyinə işarə edən Nevzat Tarhan deyir: “Qorxu mədəniyyətinin hakim olduğu, iqtisadi gücün kişi olduğu evliliklərdə oğlanlar bəzən bunu təqlid edir, bəzi uşaqlar isə evlənməkdən qorxur. Bu patriarxal mədəniyyətdə avtoritar nikah modelidir. Evlilikdə ko-kapitan sistemi olmalıdır. İndiki evliliklər birlikdə qərarlar qəbul etmək və birlikdə irəliləməkdən ibarətdir. Mədəniyyətimiz bunun çox yaxşı bir həllini tapıb: daxili işləri qadınlara, xariciləri isə kişilərə verdi. Qadını evdə və ailədə daxili xəstəliklər müdiri kimi qəbul edib, evin içində qadın qərar verir. Pul və investisiya məsələlərində son qərar kişilərin ixtiyarına verilir. Mədəniyyətimizdə belə səssiz bir razılaşma olub”.

“

*Qarşı tərəfdən gözləntilərlə yanaşı, öz vəzifə və məsuliyyətlərinin də fərqində olmaq lazımdır*

Sağlam uşaqların sağlam münasibətlər və ünsiyyət olan bir evdə böyüyəcəyini bildirən Nevzat Tarhan deyir: “Evlilikdə isti ailə mühiti olmadan sağlam övladlar yetişə bilməz. Sağlam, yaxşı və yüksək əxlaqlı övladlar yetişdirmək ailənin ilk məqsədidir.

Uşaqlarda mənəvi dəyərlər təcrübələrlə inkişaf edir. Birgə hekayələrlə, birlikdə yaradılan həyat ssenariləri ilə inkişaf edir. Uşağın atası və anası ilə olan hadisələri onun inkişaf edən ruhuna toxum kimi, həyat ssenariləri kimi əkilir. İrəli yaşda qərar qəbul edərkən şüursuz şəkildə öz davranışını formalaşdırır. Uşaqlarımız artıq bizim övladlarımız olmayacaq, sosial medianın və populyar mədəniyyətin övladları olacaqlar. Əgər tədbir görülməsə, bəlkə də 50 ildən sonra bir çox mədəniyyətlər yox olacaq. Biz ciddi şəkildə milli xarakterimizi itirmək ehtimalı ilə üzüzəyik. Bədən milyardlarla hüceyrədən ibarətdir. Cəmiyyət milyonlarla ailədən ibarətdir. Hüceyrə parçalanırsa, xərçəng yaranır. Ailə sağlam olmasa, o cəmiyyət çürüməyə başlayır. Ailəyə dəyən ziyan əslində cəmiyyətə qan itkisi deməkdir. Ailə dəyərləri öyrədən ilk institutdur”.

*Sevinc*

## HƏFTƏ REYTİNQ

### Həftənin ÖLÜSÜ



“Mənim infarkt keçirməyimlə bağlı yayılan xəbərlər tamamilə yalandır”. Bunu məşhur milyarder Corc Soros twitter hesabında yazıb. Soros ölümü barədə yayılan məlumatları təkzib edib: “Mən sağ və salamatam”. Qeyd edək ki, Corc Sorosun ürəktutmadan vəfat etməsi ilə bağlı xəbərlər yayılmışdı.

### Həftənin TƏYİNATI



Şuşa Şəhər Dövlət Qoruğu İdarəsində (ŞŞDQİ) yeni təyinat olub. Təyinatla bağlı qərar Müşahidə Şurasının növbəti rüblük iclasında verilib. Müşahidə Şurasının yekdil qərarına əsasən, Tural Novruzov icraçı direktor vəzifəsinə təyinat alıb. Qeyd edək ki, T.Novruzov bundan əvvəl Qoruğun icraçı direktor səlahiyyətlərini icra edib, həmçinin icraçı direktorun müavini olub.

### Həftənin MÖCÜZƏSİ



Suriyada bir nəfər zəlzələdən 3 ay sonra dağıntılar altından sağ çıxarılıb. Sosial şəbəkələrdə yayılan görüntülərdən həmin şəxsin tamamilə gücdən düşdüyünü görmək mümkündür. Onun həyatda necə sağ qala bilməsi hələ ki məlum deyil.

Adı açıqlanmayan həmin şəxs həkimlərə təhvil verilib. Xatırladaq ki, fevralın 6-sı Türkiyənin Kahramanmaraş vilayətində baş verən 7,7 və 7,6 bal gücündə zəlzələlər Suriyada da dağıntı və tələfata səbəb olub.

### Həftənin TƏZADI



Türkiyədə keçirilən prezident və parlament seçkilərində İstanbul Böyükşəhər Bələdiyyəsinin (İBB) sədri və Millət Alyansının sədr müavini Əkrəm İmamoğlunun səs verdiyi qutudan Rəcəb Tayyib Ərdoğan birinci olub. MHP sədri Dövlət Baxçalının səs verdiyi qutudan isə ilk olaraq Millət Alyansının prezidentliyə namizədi və CHP sədri Kamal Kılıçdaroğlu irəlidə qərarlaşıb.

### Həftənin QALİBİ



“Avroviziya 2023” beynəlxalq mahnı müsabiqəsi başa çatdı. Liverpulda keçirilən yarışmada İsveçi təmsil edən müğənni Lorin “Tattoo” mahnısı ilə qalib olub. İkinci və üçüncü yerləri müvafiq olaraq Finlandiya və İsrail tutub. Xatırladaq ki, Lorin 2012-ci ildə Bakıda keçirilən “Avroviziya” mahnı müsabiqəsində də birincilik qazanmışdı. O, bu uğurunu 11 il sonra yenidən təkrarlayıb.

### Həftənin UĞURU




Azərbaycanın daha bir ağırlıqqaldıranı Tunisin paytaxtı Tunis şəhərində keçirilən Afrika çempionatında qızıl medal qazanıb. 67 kq çəki dərəcəsində yarışan İsa Rüstəmov birdən qaldırma hərəkətində 138 kq, təkanla qaldırmada 164 kq çəkini başı üzərinə qaldırıb. Toplam 302 kq (138+164) nəticə göstərən idmançı hər üç hərəkətdə bütün rəqiblərini qabaqlayıb. Daha əvvəl qadınlardan Nazilə İsmayılova (45 kq) Afrika çempionu olub.

*Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Sürücülərə yazdığı cəriməni öz hesabına ödəyən yol polisi Oksana Jerevcuk**

“

## Siqaretə, içkiyə xərclədiyimiz pullar

**Əyyub Kərimli,**
iqtisadçı ekspert

Hər halda içkidən, siqaretdən çox istifadə edilməni ancaq iqtisadi vəziyyətlə bağlamaq olmaz.

Səh. 7

## STATİSTİKA



■ **2023-cü ilin yanvar-mart aylarında ticarət dövriyyəsinin həcmi 2022-ci ilin yanvar-mart aylarlı ilə müqayisədə 4,0 faiz artaraq 7523,2 milyon manat olub.**

Ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,3 faiz artaraq 4656,4 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 3,9 faiz azalaraq 2866,8 milyon manata bərabər olub.



Səh. 7

## Kişilərin ən çox qorxduğu xəstəlik